QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 091 (5563) 12 **may** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# Ölkəmizdə müasir turizm sənayesinin yaradılması üçün mühüm işlər görülür

*Prezident İlham Əliyev Bakıda "Dinamo" otelinin açılışında iştirak edib*



Səh 2

4

**Rumıniyanın dövlət katibi Azərbaycandakı dini vəziyyət barədə məlumatlandırılıb**



5

**Bakıda "Sevdiyim" layihəsinin təqdimatı olub**



11

**Sarkisyanın və Paşinyanın gizli danışıqları üzə çıxıb**



# Ölkəmizdə müasir turizm sənayesinin yaradılması üçün mühüm işlər görülür

*Prezident İlham Əliyev Bakıda “Dinamo” otelinin açılışında iştirak edib*







***Mayın 11-də Bakının Səbail rayonunda “Dinamo” otelinin açılış mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.***

Otelin baş meneceri Alberto Matos və dizayneri Linda Pinto burada aparılan əsaslı təmir-yenidənqurma işləri barədə Prezident İlham Əliyevə məlumat verdilər. Dövlətimizin başçısı və xanımı otelin rəmzi açılışını bildirən lenti kəsdilər. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oteldə yaradılan şəraitlə tanış oldular.

Nəfis tərtibatla qurulan otelin interyeri müasirliyi ilə diqqəti cəlb edir. Burada aparılan yenidənqurma işləri nəticəsində qonaqların qalması, yüksək səviyyədə istirahət etməsi, vaxtlarını səmərəli keçirməsi üçün maksimum imkanlar yaradılıb. İdmançıların və atletlərin arenası olan bu məkan öz yeni konsepti ilə dinamik və müasir həyat tərzi axtaranlar üçün ideal bir məkandır. Otelin restoranlarının nadir bədii konsepti də diqqət çəkir. Restoranlarda otelin qonaqlarının və müştərilərin zövqünə uyğun xidmət göstərmək üçün hərtərəfli şərait var. Burada qonaqlara milli və dünya mətbəxinin nəfis təamları təqdim ediləcək. Mehmanxananın idman zalında müasir qurğular quraşdırılıb, qonaqların və atletlərin idmanla məşğul olmaları üçün geniş imkanlar yaradılıb. Bundan başqa, oteldə üzgüçülük hovuzu, SPA da qonaqların ixtiyarına veriləcək.

Ümumi sahəsi 7500 kvadratmetrə yaxın olan otelin paytaxtın əsas işgüzar və mədəni mərkəzlərinə yaxın olması qonaqlara vaxtlarını daha səmərəli keçirmək üçün hərtərəfli imkanlar yaradır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində bütün sahələrdə olduğu kimi turizm sektorunun əsas xidmət istiqamətlərindən olan müasir otel sisteminin yaradılması baxımından son illərdə çox mühüm işlər görülüb. “Dinamo” otelində müxtəlif kateqoriyalara uyğun 28 otaq var. Otaqların interyeri tərtib edilərkən qonaqların zövqünü oxşaması və rahatlıq əsas meyar kimi seçilib. Otellə tanışlıqdan sonra Azərbaycan Prezidenti kollektivlə görüşüb. Görüşdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, bu otelin fəaliyyəti ölkəmizdə turizmin inkişafına təkan verəcək. Çünki bu, indi bizim üçün əsas istiqamətlərdən biridir, turistlərin sayı ölkəmizdə artır:

“Mən sizi Bakıda yeni otelin açılışı münasibətilə təbrik edirəm, çox gözəl hadisədir. Dinamo oteli çox gözəl səviyyədə tikilib istifadəyə verilir. Bildiyiniz kimi, bu otel tarixi binada yerləşir. Bu binanın böyük tarixi var və çox şadam ki, binanın tarixi memarlığı tam qorunub saxlanılıb və daxili dizaynı da göz oxşayır. Burada istirahət edən qonaqlar özlərini evlərindəki kimi hiss edəcəklər. Çox gözəl dizayn işləri görülüb. Xanım Pintoya xüsusi minnətdarlığımı bildirirəm ki, doğrudan da dizayn göz oxşayır. Burada bütün işlər çox müasir və yüksək səviyyədə görülübdür. Otelin yerləşməsi də çox əlverişlidir, şəhərin mərkəzidir. Burada qalan qonaqlar şəhərin ən baxımlı yerlərinə piyada rahat gedib çata bilərlər. Turistlər buradan həm bulvara, həm İçərişəhərə, şəhərimizin mərkəzi yerlərinə çox rahat gedib çıxa bilərlər.

***Ardı Səh. 3***

# Ölkəmizdə müasir turizm sənayesinin yaradılması üçün mühüm işlər görülür

*Prezident İlham Əliyev Bakıda "Dinamo" otelinin açılışında iştirak edib*






## Rəsmi xronika

Prezident İlham Əliyev Həsən Sadıqova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda deyilir ki, Azərbaycanda təhsil sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Həsən Şiralı oğlu Sadıqova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin. Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Elçin Əfəndiyevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda deyilir ki, Azərbaycan Respublikasında müasir ədəbiyyatşünaslığın və ədəbi tənqidin inkişafı sahəsində səmərəli fəaliyyətinə görə Elçin İlyas oğlu Əfəndiyev "Şöhrət" ordeni ilə təltif edilsin.

* * *

Prezident İlham Əliyev Fərəh Şirməmməd qızı Əliyevanın Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin rektoru vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb. Nazirlər Kabinetinə Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Prezidentinə təqdim etmək; Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Prezidentinə məlumat vermək tapşırılıb.

* * *

Dövlət başçısının digər Sərəncamı ilə Fərəh Əliyeva Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri təyin edilib. Bu Sərəncamlar imzalandığı gündən qüvvəyə minir.

* * *

Prezident İlham Əliyev Rövşən Nəcəfin Azərbaycan Prezidenti Administrasiyasının İnnovativ inkişaf və elektron hökumət məsələləri şöbəsinin müdiri təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Rövşən Çingiz oğlu Nəcəf Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İnnovativ inkişaf və elektron hökumət məsələləri şöbəsinin müdiri təyin edilsin. Sərəncam imzalandığı gündən qüvvəyə minir.

Əvvəli-Səh-2

Əlbəttə, bu otelin fəaliyyəti ölkəmizdə turizmin inkişafına təkan verəcək. Çünki bu, indi bizim üçün əsas istiqamətlərdən biridir, turistlərin sayı ölkəmizdə artır. Turistlərin sayı 2016-cı ildə 22 faiz, 2017-ci ildə isə 20 faiz artıb. Bu ilin dörd ayında isə Azərbaycana gələn turistlərin sayı 13 faiz artıbdır. İndi "ASAN Viza" rejimindən istifadə edərək 90-dan çox ölkədən turistlər gələ bilərlər. Bizim 7 aeroportumuz var, gözəl infrastruktur layihələri icra edilir. Bu yaxınlarda turizm üzrə Dövlət Agentliyi yaradılıb. Əlbəttə, bu Agentlik turizmin inkişafına təkan verəcək və Azərbaycanda müasir turizm sənayesi yaradılacaqdır.

Eyni zamanda, bu otelin fəaliyyətə başlaması ölkəmizin ümumi inkişafını göstərir. Şəhərimizin gözəlliyi bu gün artıq dünya birliyi tərəfindən tanınır. Ölkəmizdə keçirilmiş böyük tədbirlər, idman tədbirləri, onların arasında əlbəttə ki, Formula 1 yarışı dünyanın diqqətini Azərbaycana cəlb edir. Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biri kimi öz qapılarını dostlarının üzünə açır."

Sonra çıxışını ingilis dilində davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev deyib:

"Mən həqiqətən də çox şadam ki, biz bu gün şəhərimizin tarixi binasında yerləşən "Dinamo" otelinin rəsmi açılış mərasimində iştirak edirik. Çox şadam ki, binanın memarlıq üslubu tamamilə qorunub saxlanılmışdır. Bu binanın böyük tarixi var. Çox sevindirici haldır ki, biz bu binanı inşa olunduğu üslubda qoruyub saxlaya bilmişik. Bunun vacibliyini xüsusilə qeyd etmək istəyirəm. Çünki bilirəm ki, bu binanın sökülməsi və onun yerinə yeni göydələnin tikintisi planları var idi. Lakin mən bu barədə məlumat alan kimi, əlbəttə, bu planların qarşısını aldım. Çünki biz tariximizi, memarlığımızı qorumalıyıq və Bakı şəhərinin memarlığının inkişafını qorumalıyıq.

Əlbəttə, şəhər genişlənməlidir, inkişaf etməlidir, hündürmərtəbəli binalar, göydələnlər də olmalıdır. Lakin, eyni zamanda, tarixi keçmişimiz və müasir tələblərimiz arasında harmoniya da olmalıdır. Hesab edirəm ki, Bakı bu iki vacib elementi özündə birləşdirən dünyanın azsaylı şəhərlərindən biridir. Biz tariximizi, qədim tariximizi qoruyuruq və eyni zamanda, Bakıda inşa olunmuş müasir binalar şəhərin ümumi görünüşü ilə ziddiyyət təşkil etmir. Buna görə də Bakı öz qonaqları və şəhərin sakinləri üçün xoş və rahat nadir ab-havanı qoruyub saxlayır.

Əlbəttə, "Dinamo" otelinin açılışı əlamətdar hadisədir. Çünki biz burada xanım Pintonun rəhbərlik etdiyi qrupun, dünyaca məşhur şirkətin sənət əsərini görürük. Biz sizin verdiyiniz töhfəni yüksək qiymətləndiririk. Əlbəttə ki, sizin adınız qonaqları mütləq buraya cəlb edəcək. Otelin müxtəlif yerlərinə baxarkən biz bir daha görürük ki, sizin şirkətin belə yüksək beynəlxalq standarta malik olması təsadüfi deyil. Buna görə minnətdarlığımı bildirirəm. Əminəm ki, oteldə qalanlar, nahar yeməyi üçün buraya gələnlər və ya yaxşı vaxt keçirmək istəyənlər özlərini həqiqətən də çox xüsusi bir mühitdə hiss edəcəklər.

Şəhər sürətlə inkişaf edir. Hesab edirəm ki, bu gün Bakı dünyanın ən gözəl şəhərlərindən biridir və biz irsimizi qorumalıyıq, burada yaşayan insanlar və qonaqlarımız üçün daha da yaxşı şərait qurmalıyıq."

X X X

Bakıda yeni müasir otellərin, mehmanxana komplekslərinin istifadəyə verilməsi paytaxtımızın turizm potensialını tam nümayiş etdirməyə şərait yaradır. Bununla yanaşı, bu tədbirlər ölkəmizdə mühüm sosial infrastruktur layihələrinin icrasının davamlı olduğunu və müxtəlif sahələri əhatə etdiyini göstərir. Bu cür layihələrin uğurla həyata keçirilməsi sübut edir ki, Azərbaycanda başlanılan bütün işlər vaxtında və keyfiyyətlə yerinə yetirilir. Sonda xatirə şəkli çəkdirildi.





# Mir Cəlal Paşayev Azərbaycan ədəbiyyatında dəstxəti ilə seçilən yazıçı, əsl elm fədaisi olub

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda görkəmli yazıçı və böyük ədəbiyyatşünas Mir Cəlal Paşayevin 110 illik yubileyinə həsr olunan elmi konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları foyedə Mir Cəlal Paşayevin elmi və ədəbi irsinə həsr edilən sərgi ilə tanış olublar.



Konfransda AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli görkəmli yazıçı və ədəbiyyatşünas alim Mir Cəlal Paşayevin zəngin bədii yaradıcılığından, elmi-pedaqoji fəaliyyətindən danışıb. Bildirilib ki, Mir Cəlal XX əsr Azərbaycan ədəbiyyatında dəstxəti ilə seçilən yazıçı, tələbələri üçün xeyirxah müəllim və əsl elm fədaisi olub.

Mir Cəlal Paşayevin Ədəbiyyat İnstitutunda elmi fəaliyyətinin əsas istiqamətləri barədə məlumat verən AMEA-nın vitse-prezidenti XX əsrin ədəbi-elmi fikrinin korifeylərindən sayılan Mir Cəlal Paşayevin çağdaş Azərbaycan tarixində ədəbiyyatşünasnəzəriyyəçi alim kimi müstəsna və özünəməxsus yer tutduğunu deyib. O, Mir Cəlal Paşayevin yaradıcılığının xarakteristikasının cəmiyyət məsələlərindən daha çox insana həsr olunduğunu bildirib: “Alim əsərlərində sadə insanların obrazını yaradaraq, onların dərin mənəviyyatdakı işığını, insanlığını böyük ədəbiyyatın mövzusuna çevirib. Onun əsərlərində həyatın reallıqları, insanın mənəvi dünyası öz inikasını tapıb”.

Mir Cəlal Paşayevin görkəmli ədib, pedaqoq, həm də insanpərvər bir şəxsiyyət olduğunu söyləyən İ.Həbibbəyli ədibin “Bir gəncin manifesti” romanını ədəbiyyatda insana münasibətin həmin dövrdəki manifesti kimi dəyərləndirib. Bildirib ki, Mir Cəlal milli mənəvi dəyərlərin klassik ənənələrə uyğun inkişafını və bu istiqamətdə yaranan problemləri, xalq həyatının real görüntüsünü nəsr dilində aydın, qabarıq şəkildə verib.

Görkəmli yazıçının ilk irihəcmli əsəri - “Dirilən adam” romanı haqqında danışan İ.Həbibbəyli onun heç zaman aktuallığını itirməyən hekayələrinin, romanlarının əhəmiyyətini diqqətə çatdırıb. Bildirib ki, Mir Cəlal Paşayevin böyük zəhmətinin bəhrəsi olan “Füzuli sənətkarlığı”, “XX əsr Azərbaycan ədəbiyyatı”, “Azərbaycanda ədəbi məktəblər (1905-1917)”, “Ədəbiyyatşünaslığın əsasları” adlı fundamental əsərləri ədəbiyyatşünaslıq elminin qiymətli mənbələrindəndir.

Diqqətə çatdırılıb ki, “Azərbaycanda ədəbi məktəblər (1905-1917)” əsərində isə Mir Cəlal Paşayev XX əsrin əvvəllərində inqilabi-demokratik meyillərlə əlaqədar baş verən ictimai-siyasi hadisələr kontekstində Azərbaycanda realizm, romantizm ədəbi məktəbləri, maarifçi-didaktik yazıçılar və xırda məişət dramları haqqında tədqiqatlar aparıb, əhatəli elmi nəticələr əldə edib. Bu əsər Azərbaycanda ədəbi məktəblər haqqında ən ciddi sistemləşdirilmiş və ümumiləşdirilmiş nəzəri bir tədqiqatdır.

Akademik bildirib ki, ədibin 1967-ci ildə yazdığı “Cəlil Məmmədquluzadənin realizmi” əsəri Azərbaycan molla nəsrəddinşünaslığında xüsusi yer tutur. Mir Cəlal Paşayevin həm namizədlik, həm də doktorluq dissertasiyasının ədəbiyyat nəzəriyyəsi məsələlərinə həsr olunduğunu deyən AMEA-nın vitse-prezidenti onun “Ədəbiyyatşünaslığın əsasları” kitabının ədibin ədəbiyyat nəzəriyyəsi haqqındakı baxışlarının ümumiləşmiş yekunu olduğunu qeyd edib. Bildirilib ki, Mir Cəlal ədəbiyyat nəzəriyyəçisi ilə yanaşı, həm də ədəbiyyat tarixçisidir. Onun ədəbi tənqid sahəsindəki xidmətləri də böyükdür. İ.Həbibbəyli müstəqillik dövründə Mir Cəlal Paşayevin ədəbi irsinin yenidən təhlil edilərək gələcək nəsillərə çatdırılmasının önəmini vurğulayıb.

Konfransda filologiya elmləri doktoru, professor Şirindil Alışanlı “XX əsr ədəbiyyatının Mir Cəlal fenomeni”, filologiya elmləri doktoru, professor Bədirxan Əhmədov “Mir Cəlal nəsrində bədii yumor” və filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Bağırlı “Mir Cəlal Paşayevin elmi irsi” mövzularında məruzə ilə çıxış ediblər.

Sonda alimin oğlu, “ADA” Universitetinin rektoru, professor Hafiz Paşayev atası ilə bağlı xatirələrini bölüşüb. Bildirilib ki, Mir Cəlal azərbaycançılığı sovet dövrünün çətin vaxtlarında əsərlərində yaşadıb. Hafiz Paşayev tədbirin təşkilinə görə Ədəbiyyat İnstitutuna təşəkkürünü bildirib.

# Rumıniyanın dövlət katibi Azərbaycandakı dini vəziyyət barədə məlumatlandırılıb





Mayın 11-də Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov Rumıniyanın dini məsələlər üzrə dövlət katibi Viktor Opaskinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Rumıniya nümayəndə heyəti Azərbaycandakı dini vəziyyət, ölkəmizdə hökm sürən multikultural və tolerant vəziyyət barədə məlumatlandırılıb. Siyavuş Novruzov bildirib ki, Azərbaycan dünyada tolerantlığın mərkəzi olan dövlətlərdən biridir. Azərbaycanda bütün dinlərə hörmət olunur və onların nümayəndələrinin hüquqları bərabər şəkildə qorunur. Ölkəmizdə dinlə bağlı qurumlar fəaliyyət göstərir. Buna nümunə olaraq Qafqaz Müsəlmanları İdarəsini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsini və Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsini qeyd etmək olar. Ölkəmizdə din-dövlət münasibətlərini Azərbaycan Respublikasının Konstitusiyası müəyyən edir. Azərbaycanda 1995-ci ildə Konstitusiya qəbul olunarkən burada hər kəsin inancına hörmətlə yanaşılması məsələsi öz əksini tapıb. Azərbaycanda “Dini etiqad azadlığı” haqqında Qanun qəbul olunub. Ölkəmizdə qanunla qadağan olunmamış bütün dinlərə bərabər şərait yaradılır. Burada 2500-dən artıq məscid, 15-ə yaxın kilsə, sinaqoq və udin kilsəsi, həmçinin erməni kilsəsi də fəaliyyət göstərir. Səkkiz yüzdən artıq icma qeydiyyatdan keçib ki, bunlar da müxtəlif dinləri təmsil edir. Bu, ölkəmizdə bütün dinlərə bərabər şərait yaradıldığının bariz nümunəsidir. Azərbaycanda dinlər arasında çox böyük qarşılıqlı etimad var. Heç bir dinə qarşı ayrı-seçkilik yoxdur. Azərbaycanda tez-tez dinlərarası forumlar keçirilir. Burada bütün mədəniyyətlərin, həmçinin dinlərin bir-birinə yaxınlaşması, tolerantlıq əsas məsələlərdən biridir.

Dövlət katibi Viktor Opaski Azərbaycanda keçirdiyi görüşlərdən məmnun qaldığını bildirib. Qonaq dinlər arasında əməkdaşlığın əhəmiyyətli olduğunu söyləyib. O, ölkəsindəki dini vəziyyət, dövlət və din münasibətləri barədə məlumat verib. Bildirib ki, Rumıniya bir çox etnik azlıqların yaşadığı ölkədir. Həmin etnik azlıqların nümayəndələri Rumıniya parlamentində təmsil olunurlar.

Görüş zamanı qarşılıqlı informasiya mübadiləsindən sonra əlaqələrin genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb.

# Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib

Mayın 11-də Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, komitə sədri Ziyad Səmədzadə gündəlik barədə məlumat verib. Əvvəlcə “Hesablama Palatası haqqında” qanun layihəsi ikinci oxunuşda müzakirə edilib. Z.Səmədzadə bildirib ki, bu qanun Azərbaycan Respublikası Hesablama Palatasının statusunu, fəaliyyətinin hüquqi əsaslarını, idarəetmə və təşkilati strukturunu, habelə dövlət vəsaitlərinin qanunauyğun, məqsədyönlü və səmərəli istifadəsinə dövlət nəzarətinin təmin edilməsi sahəsində kənar dövlət maliyyə nəzarətinin obyektləri və digər tərəflərlə münasibətlərini tənzimləyir.

Komitə sədri vurğulayıb ki, Azərbaycan son 25 il ərzində böyük inkişaf yolu keçib. Artıq bu gün bütün dünya Azərbaycanın qazandığı uğurları, iqtisadi sahədə əldə etdiyi nailiyyətləri birmənalı şəkildə qəbul edir. “Ulu öndər Heydər Əliyev azad bazar münasibətləri sistemini qurarkən ölkəmizdə bir neçə strukturun yaradılmasını vacib hesab etdi. Bu qurumlardan biri də Hesablama Palatasıdır. Beynəlxalq aləmdə Azərbaycan cəmiyyətinin nüfuzunun artması, aparılan islahatların demokratikləşdirilməsi, iqtisadi inkişafda əldə olunan nailiyyətlər, eləcə də şəffaflığının təmin edilməsi, dövlət büdcəsi üzərində nəzarətin birmənalı şəkildə Milli Məclis tərəfindən aparılması və parlamentin cəmiyyətdə rolunun artırılması istiqamətlərində görülən işlər göz qabağındadır”, - deyə Ziyad Səmədzadə vurğulayıb. Bildirilib ki, Hesablama Palatası Milli Məclisin orqanı olaraq son illərdə böyük inkişaf yolunu keçib.



Hesablama Palatasının sədri Vüqar Gülməmmədov qeyd edib ki, ötən 5 ay ərzində qanun layihəsinə 30-dan çox maddə üzrə həm texniki, həm mahiyyəti üzrə əlavə və düzəlişlər edilib. Edilən dəyişikliklər həm ölkədaxili qanunvericilik aktlarına, həm də xarici ölkələrin təcrübələrinə, beynəlxalq prinsipləri və standartları yenidən nəzərdən keçirməklə həyata keçirilib. Dəyişikliklər əsasən Hesablama Palatasının vəzifə və funksiyaları, həmçinin korrupsiyaya və hüquq pozğunluqlarına qarşı aparılan tədbirlərlə bağlıdır.

Müzakirədən sonra “Hesablama Palatası haqqında” qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub. Sonra “Banklar haqqında”, “Poçt haqqında”, “Qiymətli metallar və qiymətli daşlar haqqında”, “Sığorta fəaliyyəti haqqında”, “İnvestisiya fondları haqqında”, “Qiymətli kağızlar haqqında” qanunlarda dəyişikliklər edilməsi barədə qanun layihələri müzakirə olunub. Bildirilib ki, bu qanun layihələrinə edilən dəyişikliklər texniki xarakter daşıyır. Bu qanun layihələri də parlamentin plenar iclasına tövsiyə olunub.

# Bakıda "Sevdiyim" layihəsinin təqdimatı olub

***Mayın 11-də Bakıda ümummilli lider Heydər Əliyevin anadan olmasının 95, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileylərinə həsr olunmuş "Sevdiyim" layihəsinin təqdimat mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov, mədəniyyət naziri Əbülfəs Qarayev, gənclər və idman naziri Azad Rəhimov, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.***






Mərasim Azərbaycanın dövlət himninin səsləndirilməsi ilə başlayıb.

ASAN Radionun direktoru Emin Musəvi tədbiri açaraq layihə haqqında məlumat verib. Bildirib ki, "Sevdiyim" layihəsi "ASAN xidmət", "ASAN Könüllüləri" Təşkilatı və ASAN Radionun birgə təşkilatçılığı ilə reallaşıb. Layihənin məqsədi tarixi ənənələrin qorunması və təbliği, milli mənəvi dəyərlərə sadiqlik, azərbaycançılıq, dövlətçilik məfkurəsinin genişləndirilməsidir. Layihə çərçivəsində görkəmli şair, dramaturq Cəfər Cabbarlının üçrəngli Azərbaycan bayrağına həsr olunmuş "Sevdiyim" şeiri əsasında yüzillik tariximizin əks olunduğu klip ərsəyə gəlib. Əsərin bəstəkarı və ifaçısı Əməkdar Artist Tünzalə Ağayeva, klipin rejissoru Ülviyyə Könüldür.

Mərasimdə çıxış edən Prezidentin köməkçisi Fuad Ələsgərov deyib ki, bugünkü tədbir iki mötəbər hadisə - ümummilli lider Heydər Əliyevin 95 illik və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyləri münasibətilə keçirilir. Bu gün həm də artıq qeyd edildiyi kimi, Azərbaycanın dövlət bayrağına həsr olunmuş klipin təqdimatında iştirak edirik. Müstəqil Azərbaycan dövlətinin üçrəngli bayrağı dövlət rəmzi kimi ilk dəfə Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfindən 1918-ci il noyabrın 9-da təsdiq edilib. Təəssüflər olsun ki, bu bayraq yalnız 23 ay Xalq Cümhuriyyətinin üzərində dalğalana bildi. Lakin Cümhuriyyətin süqut etməsinə baxmayaraq, Azərbaycan xalqı müstəqillik bayrağımızı daim öz qəlbində yaşadıb və 70 il sonra ona bir daha sahib çıxıb. 1990-cı il noyabrın 17-də xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında üçrəngli bayrağımız Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq təsdiq edildi. Həmin gün dövlət bayrağımız sessiyaya gətirildi və muxtar respublikanın Ali Məclisində ucaldıldı. Bu, çox cəsarətli və fədakar addım idi. Çünki o zaman Azərbaycan hələ də Sovet İttifaqının tərkib hissəsi idi. Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, bizim müstəqilliyə gedən yolumuz məhz həmin gündən başlamışdır.

Fuad Ələsgərov qeyd edib ki, ümummilli lider Heydər Əliyev üçrəngli bayrağımıza sadəcə dövlət rəmzi kimi yox, dünya azərbaycanlılarını birləşdirən simvol kimi dəyər verirdi. O deyirdi: "Kim Azərbaycanı sevirsə, Azərbaycanın müstəqil dövlət olmasını, işğal edilmiş torpaqlarının azad olunmasını, ölkəmizin ərazi bütövlüyünün bərpa olunmasını istəyirsə, o, bu bayraq altında birləşməlidir". Üçrəngli bayrağımızın Azərbaycan dövləti tərəfindən təsdiq edilməsi barədə məsələ də Azərbaycanın Ali Soveti qarşısında məhz Ümummilli Liderimiz tərəfindən qaldırılmışdı. Yalnız bundan sonra, 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti "Dövlət bayrağı haqqında" Qanun qəbul edərək üçrəngli bayrağı dövlət bayrağı elan etdi. 1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, o cümlədən dövlət bayrağını bərpa etdi.

Prezidentin köməkçisi bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2009-cu il noyabrın 17-də imzaladığı Sərəncamla hər il 9 noyabr tarixi ölkəmizdə Dövlət Bayrağı Günü kimi qeyd olunur. Dövlətimizin başçısı 2007-ci il noyabrın 17-də "Bakı şəhərində Dövlət Bayrağı Meydanının yaradılması haqqında" Sərəncam imzalayıb və 2010-cu il sentyabrın 1-də dünyanın ən hündür bayrağının ucaldığı Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimi keçirilib. Açılış mərasimində Azərbaycan Prezidentinin üçrəngli bayrağımız barədə fəxrlə dediyi sözlər hamımızın yaddaşına həkk olunub. O xüsusilə deyib: "Bizim bayrağımız qürur mənbəyimiz, canımız, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaq. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaq. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq".

Fuad Ələsgərov deyib ki, artıq 28 ildir üçrəngli bayrağımız enmədən başımız üzərində dalğalanır. Ümummilli Liderimizin dəfələrlə dediyi kimi, Azərbaycanın bayrağı sadəcə bayraq deyil, o, bizim dövlətçiliyimizin və müstəqilliyimizin rəmzidir. Qürur hissi ilə deyə bilərik ki, bu gün bu bayraq adi dövlətin deyil, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizə apararaq şəhidlər vermiş, dünyaya özünü tanıda bilmiş, güclü iqtisadiyyat qurmuş, regionda aparıcı qüvvəyə çevrilmiş dövlətin bayrağıdır. Prezident İlham Əliyevin söylədiyi kimi, bu gün Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları Azərbaycanı görsəydilər, fəxr edərdilər. Bu nailiyyətlərin əldə edilməsinə görə Azərbaycan xalqı, əlbəttə ki, ilk növbədə, müasir dövlətimizin qurucusu olan ulu öndər Heydər Əliyevə borcludur. Öz ömrünü Azərbaycan dövləti və xalqının inkişafına həsr etmiş bu dahi insanın Azərbaycan tarixində rolu əvəzsizdir. Heydər Əliyev şəxsiyyəti bugünkü Azərbaycanın uğurlu inkişafının təməlində dayanan bir amildir. 1969-cu ildə Ümummilli Lider Azərbaycana rəhbərlik etməyə başlayanda ölkəmiz Sovet İttifaqında ən geridə qalmış respublikalardan biri kimi tanınırdı. Lakin onun 13 illik rəhbərliyi dövründə Azərbaycan Sovet İttifaqının ən inkişaf etmiş və qabaqcıl respublikalarından birinə çevrildi. 1993-cü ildə isə Ulu Öndərin qarşısında daha çətin vəzifələr dururdu. Azərbaycan demək olar ki, öz müstəqilliyini itirmək ərəfəsində idi. Ölkə parçalanırdı, idarəolunmaz vəziyyət yaranmışdı. İqtisadiyyat tənəzzülə uğramışdı. Belə bir vəziyyətdə Azərbaycan xalqı bir daha öz müdrikliyini göstərərək Ulu Öndərə üz tutdu və onu ölkəyə rəhbərlik etməyə çağırdı. Bu, müasir tariximizin həlledici dönüş nöqtəsi oldu. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi on il ərzində ölkəmiz böyük və uğurlu inkişaf yolu keçib.

**Ardı Səh. 6**

# Bakıda "Sevdiyim" layihəsinin təqdimatı olub




Əvvəli-Səh-5

Azərbaycanda siyasi sabitlik təmin edilib, dövlət quruculuğu prosesi uğurla aparılıb, müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilib. Köklü siyasi islahatlarla yanaşı, iqtisadi-sosial sahədə böyük layihələr həyata keçirilib, ölkəyə irihəcmli investisiyalar cəlb edilib. Bu gün Ulu Öndərin siyasəti Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ümummilli Liderin qoyduğu təməllər üzərində güclü dövlət qurulub. Azərbaycanda siyasi sabitlik hökm sürür, iqtisadiyyat inkişaf edir və müstəqil xarici siyasət aparılır. Üçrəngli bayrağımız BMT, Avropa Şurası, ATƏT və digər nüfuzlu beynəlxalq təşkilatların üzərində dalğalanır.

Diqqətə çatdırılıb ki, müasir Azərbaycanın əldə etdiyi əsas uğurlardan biri də güclü ordunun yaradılmasıdır. Hazırda Azərbaycan Ordusu müasir silahlarla təchiz edilmiş, yüksək döyüş hazırlığına malik, Ali Baş Komandanın rəhbərliyi ilə ən çətin tapşırıqların öhdəsindən gəlməyə qadir, qüvvətli bir ordudur. Bu ordu öz gücünü 2016-cı ilin Aprel döyüşlərində göstərdi və üçrəngli bayrağımızı düşməndən azad edilmiş torpaqlarda ucaltdı. Əminik ki, çox yaxın zamanlarda, Azərbaycanın dahi dramaturqu və şairi Cəfər Cabbarlının sözləri ilə desək, "yaşıl donlu, mavi gözlü, al yanaqlı" bayrağımız Şuşada, bütün Qarabağda dalğalanacaq.

Prezidentin köməkçisi Azərbaycanın dövlət bayrağına həsr edilmiş bu gözəl layihənin ərsəyə gəlməsində xidməti olmuş "ASAN xidmət"ə, "ASAN könüllüləri"nə, ASAN Radioya, klipin bütün yaradıcı heyətinə təşəkkür edib. Bildirib ki, bu əsər Azərbaycan xalqının üçrəngli bayrağına bir əsrlik sadiqliyini, bağlılığını və hörmətini nümayiş etdirir.

Sonra mədəniyyət naziri Əbülfəs Qarayev çıxış edərək layihənin əhəmiyyəti haqqında danışıb. Bu günlərdə dünya azərbaycanlılarının ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyini geniş şəkildə qeyd etdiyini söyləyən nazir Ümummilli Liderin Azərbaycan dövləti və xalqı qarşısındakı misilsiz xidmətlərindən bəhs edib. O deyib ki, Azərbaycan xalqı xoşbəxtdir ki, onun Vətəninə və xalqına əvəzsiz xidmətləri ilə əbədilik qazanmış ümummilli lideri - Heydər Əliyevi var. Azərbaycanın dövlət müstəqilliyinin bərpası ərəfəsində gedən prosesdə Heydər Əliyev tarixi şəxsiyyət, lider olaraq Azərbaycan xalqının taleyinə təsir göstərən əhəmiyyətli addımlar atdı. Ümummilli Lider Azərbaycanı məhv olmaq, müstəqilliyini itirmək təhlükəsindən xilas etdi. Heydər Əliyev xalqımızın yaddaşına əbədi həkk olunmuş dahi şəxsiyyətdir. Onun Azərbaycana rəhbərliyinin hər iki dövründə gördüyü misilsiz işlər heç vaxt unudulmayacaq. Ulu Öndər dövlət rəmzlərini, xüsusən, dövlət bayrağını həmişə diqqət mərkəzində saxlayıb. O, Azərbaycan Respublikasının dövlət rəmzlərinə hörməti Vətənə, xalqa, dövlətə olan məhəbbət və hörmətə bərabər tuturdu. Bu gün Heydər Əliyevin siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısının həyata keçirdiyi siyasət, irəli sürdüyü hər bir təşəbbüs ölkəmizi daha da inkişaf etdirir, daha parlaq gələcəyə aparır.

Gənclər və idman naziri Azad Rəhimov bildirib ki, 2018-ci il ölkəmizin ictimai-siyasi həyatında əlamətdar hadisələrlə zəngindir. Prezident seçkiləri, ümummilli lider Heydər Əliyevin anadan olmasının 95, Azərbaycan Xalq Cümhuriyyətinin, ordumuzun, parlamentimizin 100 illik yubileyləri bu mühüm tədbirlərdəndir. Azərbaycan son 100 ildə çox çətin tarixi proseslərdən keçərək hazırda öz tarixinin ən şanlı səhifələrini yaşayır. Ümummilli Liderimizin uzaqgörənliyi, müdrikliyi və əzmkarlığı nəticəsində Azərbaycanın müstəqilliyi əbədi və sarsılmaz olub. Heydər Əliyevin həyatı və fəaliyyəti Azərbaycanın müstəqil olmasına yönəlmişdi. Onun hələ Sovet İttifaqı dövründə Azərbaycana rəhbərlik etməsi, sonradan SSRİ-nin əsas rəhbərlərindən olaraq gördüyü işlər müstəqil dövlətimizin qurulması üçün əsaslar yaratmışdı. O zaman aparılmış ciddi iqtisadi islahatlar, kadr islahatları, ən əsası gənclərimizin təhsil almaq üçün xaricə göndərilməsi xüsusilə qeyd edilməlidir. Ulu öndər Heydər Əliyev gənclərin milli ruhda böyüməsi, onlara vətənpərvərlik hisslərinin aşılanması məsələsini daim diqqətdə saxlayırdı. Onun yalnız dahilərə məxsus diqqəti, yaddaşı, təfəkkürü, hadisələri və faktları təhlil etmək bacarığı hamımız üçün böyük bir məktəbdir. Çox xoşbəxtik ki, Ümummilli Liderin siyasəti bu gün də uğurla davam etdirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan regionun lider dövlətinə çevrilib. Bu gün Azərbaycan dünyada hörmətlə və ehtiramla qarşılanan dövlətlərdəndir.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev bildirib ki, Ulu Öndərimizin 95 illiyi və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi önəmli hadisələrdir. Bu gün Ulu Öndəri və Azərbaycan Xalq Cümhuriyyətini birləşdirən bir çox məqamlar var. Bu məqamlardan ən əsası isə üçrəngli Azərbaycan bayrağıdır. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra ilk dəfə üçrəngli bayrağımız təsis olundu, lakin cəmi 23 ay müddətində yaşaya bildi. Amma Ulu Öndər Heydər Əliyev əsrin sonunda həmin üçrəngli bayrağı bir daha enməmək şərti ilə ucaltdı. Ona görə də bu bayraq əslində Ulu Öndər və Cümhuriyyət kimi tarixi hadisələri birləşdirən rəmzi bir nüansdır.

Sonra "Sevdiyim" şeiri əsasında yüzillik tariximizin əks olunduğu klip təqdim edilib.

Əməkdar Artist Tünzalə Ağayeva kliplə bağlı təəssüratlarını bölüşüb. O deyib: "Biz xoşbəxt xalqıq ki, müstəqilliyimizin 100 yaşını qeyd edirik. Bu gün biz həm də Ulu Öndərimizin 95 illiyini qeyd edirik. Ümummilli Liderimizin əziz xatirəsi həmişə qəlbimizdədir və onun "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" sözləri bizə ruh verir".

Klipin rejissoru Ülviyyə Könül belə mühüm bir layihədə iştirak etməkdən qürur duyduğunu söyləyib. Tədbir konsert proqramı ilə davam edib.



## Qida Təhlükəsizliyi Agentliyi sahibkarların qarşısına çıxan problemlərin həllinə kömək edəcək



Qida Təhlükəsizliyi Agentliyi may ayının 20-dən etibarən sahibkarlarla müntəzəm görüşlər keçirməyi planlaşdırır. AZƏRTAC xəbər verir ki, bu məlumatı Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədr müavini Rüfət Rüstəmzadə sahibkarlarla keçirdiyi görüşdə deyib. Bildirilib ki, görüşlərin əsas məqsədlərindən biri də sahibkarların qarşısına çıxan problemlər, onlardan çıxış yolları, həmçinin agentlik tərəfindən göstərilən köməkdən ibarətdir. Bundan başqa, beynəlxalq standartlara uyğun yüksək keyfiyyətli məhsulların istehsalı, ixrac-idxal prosesində ən sadə modellərin tətbiqi də hər iki tərəf qarşısında duran əsas məsələlərdən biridir. Tədbirdə qeyd olunub ki, mayın 16-18-də Bakıda keçiriləcək qida sərgisində ilk dəfə olaraq Qida Təhlükəsizliyi Agentliyi də iştirak edəcək.

# Azərbaycanın idman tarixində daha bir yeni səhifə

*Mötəbər beynəlxalq yarışlara ev sahibliyi edən paytaxt Bakı yarım əsrlik tarixi olan "Formula-1" Azərbaycan Qran-Prisinə uğurla yekun vurdu*




Paytaxt Bakıda start götürən elit yarışmalarından olan "Formula-1" Azərbaycan Qran-Prisinə yekun vuruldu. Dünyanın idman arenalarında artıq özünə layiqli yer tutan Azərbaycan daha bir beynəlxalq yarışa ev sahibliyi etməklə iqtisadi gücünü, inkişafını, qonaqpərvərliyini, multikultural dəyərlərini, sabitlik adası kimi əmin-amanlığın hökm sürdüyü məkan olduğunu bir daha dünyaya nümayiş etdirdi. Belə yarışların Azərbaycanda keçirilməsi, hər bir sahədə olduğu kimi, idman sahəsində də ölkəmizin böyük nüfuz qazandığının təzahürüdür. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə, ölkə həyatının bütün sahələrində olduğu kimi, idmanın inkişafına yönəlmiş qərarların qəbulu, tədbirlərin reallaşması idman sahəsində ölkəmizin yüksək beynəlxalq nüfuz qazanmasına səbəb olub. Azərbaycanda keçirilən dünya və Avropa çempionatları sübut edir ki, həqiqətən də, Azərbaycanda idman sürətlə inkişaf edir. Ölkəmizin, ardıcıl olaraq beynəlxalq yarışlarda iştirakı və uğurlar qazanması beynəlxalq aləmin Azərbaycandakı idman hərəkatına olan diqqətini artırıb. Son illərdə birinci Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına və bir çox nüfuzlu beynəlxalq yarışlara uğurla ev sahibliyi etməsi ölkəmizin dünyada getdikcə artan nüfuzundan, siyasi və iqtisadi sahədə qazandığı uğurların yetərincə olmasından qaynaqlanır.

Bakının "Formula-1" kimi mühüm yarışı da yüksək səviyyədə təşkil etməsi bir daha Azərbaycanın idman dövləti olduğunu, bu missiyanın ölkəmizin timsalında hər zaman özünü doğrultduğunu təsdiqləyir. Dünyada yarım milyard tamaşaçı auditoriyası olan "Formula-1" yarışının növbəti dəfə Bakıda keçirilməsi ölkəmizin beynəlxalq idman aləmində qazandığı uğurları bir daha əks etdirir. Bu, həm də onu göstərir ki, qədim tarixə, zəngin mədəniyyətə, milli mənəvi dəyərlərə, ən əsası da parlaq idman ənənələrinə malik ölkəmiz qarşıya qoyulan hər bir məqsədə, hər bir niyyətə uğurla çatır.

"Formula-1" yarışlarının Bakı mərhələsi dünyada böyük maraq doğurub. Bakı bütün iştirakçıları və qonaqları, hər zaman olduğu kimi, növbəti tədbirdə də ev sahibi olaraq yüksək səviyyədə qarşılayaraq, yarışı uğurla yekunlaşdırdı. Bu da paytaxtımız ətrafında kifayət qədər məlumatı dünya ictimaiyyətinə çatdırmış oldu. Belə ki, yarış zamanı qonaqlar YUNESKO-nun Ümumdünya İrsi Siyahısına daxil olan İçərişəhər Tarixi-Memarlıq Qoruğunu, şəhərin müasir göydələnlərini və s. görərək, ecazkarlığı seyr etdilər və yarışı izləyən televiziya tamaşaçıları və qonaqlar şəhərimizin gözəlliyini görmək imkanı qazandılar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünya əhəmiyyətli bir tədbirlə bağlı "Fox Sport" televiziya kanalına müsahibə verərkən bildirib ki, biz çox şadıq ki, üçüncü dəfə "Formula-1" Bakıda keçirilir: "Hamı yarışdan həzz alır. Əminəm ki, qonaqlar da həzz alır, onlar burada bizimlədirlər. Onlar Azərbaycan xalqının qonaqpərvərliyini görürlər. Qonaqlar şəhərimizin necə də gözəl olduğunu görürlər və bu, möhtəşəm bir tədbirdir. Biz çox şadıq".

Builki yarışlarda "Formula-1" şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının "Gələcəyin ulduzları" adlı birgə təşəbbüsü çərçivəsində qəbul etdiyi yeni qərara əsasən, həm parad, həm də himn mərasimlərində pilotlar azyaşlılar tərəfindən müşayiət olundu.

Xatırladaq ki, 2016-cı ildə Bakıda keçirilən "Formula-1" Avropa Qran-Prisinin qalibi "Mercedes"in almaniyalı pilotu Niko Rosberq olub. Ötən il isə "Formula-1" Azərbaycan Qran-Prisi "Red Bull Racing" komandasının avstraliyalı sürücüsü Daniel Rikkardonun qələbəsi ilə başa çatıb. Bu dəfə isə Azərbaycan Qran-Prisinin qalibi "Mercedes" komandasının britaniyalı pilotu Luis Hamilton oldu.

Beləliklə, növbəti "Formula-1" Azərbaycan Qran-Prisi uğurla başa çatdı. Bu dəfə Bakı dünya tamaşaçılarına və şəhərimizin qonaqlarına maraqlı idman yarışı təqdim etməklə yanaşı, Azərbaycanın belə mötəbər yarışlara uğurla ev sahibliyi etdiyini nümayiş etdirdi. Məhz bunun nəticəsidir ki, "Formula-1" Azərbaycan Qran-Prisi dünyanın nüfuzlu ölkələrinin mətbuatında yer alıb. Belə ki, Birləşmiş Ərəb Əmirlikləri, Misir, Səudiyyə Ərəbistanı, Çin, Rumıniya, Bolqarıstan, İsveç, Fransa, Danimarka və digər ölkələrin KİV-ləri Bakıda keçirilən "Formula-1" Azərbaycan Qran-Prisindən yazaraq həmişə yüksək təşkilatçılıq bacarığı ilə seçilən Azərbaycanın "Formula-1" Qran-Prisinə də müvəffəqiyyətlə ev sahibliyi etdiyini, yarışın gedişini, cəlbediciliyini diqqətə çəkərək, pilotlar, eləcə də burada olan yenilikləri və s. məlumatları oxuculara çatdırıblar.

Həqiqətən də, "Formula-1" tamaşaçıları ölkəmizdə gedən inkişaf proseslərinin şahidi oldular. Ölkəmizə gələn əcnəbi qonaqlar burada yaradılan infrastrukturu, bütün sahələrdə tərəqqini, nadir arxitekturanı, ölkənin qədim tarixi və zəngin çoxəsrlik mədəniyyətini, həmçinin sabitliyi və təhlükəsizliyi, ölkəmizdə rahat vaxt keçirmələrini yüksək qiymətləndirirlər. Bütün bunlar dövlət başçısı Prezident İlham Əliyevin ölkənin kompleks şəkildə inkişafına dair uzaqgörən və müdrik strategiyası ilə bağlıdır. Əminliklə demək olar ki, bu gün Azərbaycan özünü təsdiq edən zəngin və güclü dövlətdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Viktor Opaski: "Azərbaycanın tolerantlıq və multikulturalizmlə bağlı təcrübəsi öyrənilməlidir"



Mayın 11-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ölkəmizdə səfərdə olan Rumıniyanın dini məsələlər üzrə dövlət katibi Viktor Opaskinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə rumın və Azərbaycan xalqları arasında tarixi əlaqələrin mövcud olduğunu bildirən Dövlət Komitəsinin sədri ümummilli lider Heydər Əliyevin 1995-ci ildə Rumıniyaya və 1996-cı ilin mart ayında Rumıniya Prezidentinin Azərbaycana səfərlərinin iki ölkə arasında əlaqələrin qurulması və inkişafında böyük əhəmiyyətə malik olduğunu vurğulayıb. O, Rumıniyanın dini məsələlər üzrə dövlət katibi Viktor Opaskinin bu səfərinin Azərbaycan və Rumıniya arasında dini sahədəki münasibətlərə müsbət təsir göstərəcəyinə ümidvar olduğunu deyib.

Rəhbərlik etdiyi qurumun fəaliyyəti, Azərbaycandakı dini durum və dövlət-din münasibətləri, dinə dövlət qayğısı barədə məlumat verən Mübariz Qurbanlı bildirib ki, ölkəmizdə məscidlərlə yanaşı, kilsə və sinaqoqlar da fəaliyyət göstərir. Azərbaycanda 31-i qeyri-islam olmaqla 809 dini icma dövlət qeydiyyatına alınıb. Ölkəmizdə müxtəlif konfessiyalar sərbəst və qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərirlər, İslam və qeyri-islam dini icmalarına dövlət tərəfindən maddi yardım ayrılır. Azərbaycanın tolerantlığa və multikultural, milli mənəvi dəyərlərin qorunmasına və inkişafına görə dünyada nümunə ola biləcək ölkələrdən biri olduğunu deyən Mübariz Qurbanlı bunun təzahürü olaraq Prezident İlham Əliyev tərəfindən 2016-cı ilin ölkəmizdə "Multikulturalizm İli", ötən ilin isə "İslam Həmrəyliyi İli" elan olunduğunu diqqətə çatdırıb. Azərbaycanda sivilizasiyalararası dialoq mərkəzinin fəaliyyət göstərdiyini və bununla əlaqədar ölkəmizin bir çox beynəlxalq forumlara ev sahibliyi etdiyini deyən sədr bu mərkəzin xətti ilə cari ildə dinlərarası dialoqa dair konfranslar keçirilməsinin nəzərdə tutulduğunu vurğulayıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə danışan Mübariz Qurbanlı Rumıniyanın bütün beynəlxalq təşkilatlarda və ikitərəfli müqavilələrdə Azərbaycanın haqlı mövqeyini müdafiə etməsindən məmnunluğunu ifadə edib.

Dini məsələlər üzrə dövlət katibi Viktor Opaski ölkəmizə növbəti dəfə səfər etməsindən məmnun olduğunu bildirib. Rumıniyalı qonaq Azərbaycana hər səfərində inkişafın, eləcə də Bakının daha da gözəlləşməsinin şahidi olduğunu deyib. Görüşün iki ölkə arasında müvafiq sahədə fikir mübadiləsi aparılması üçün əhəmiyyətli olduğunu və Azərbaycanın bu sahədə mövcud təcrübəsinin öyrənilməsinin vacibliyini diqqətə çatdıran V.Opaski Azərbaycanda mədəni müxtəliflik, tolerantlıq və multikulturalizm kimi məsələlər üzrə fəal iş aparıldığını qeyd edib.

Görüşdə Rumıniyanın Müsəlman İcmasının Ali Müftisi Yusuf Murad çıxış edərək ölkəsində müsəlman icmasının fəaliyyəti, gördüyü işlər barədə ətraflı məlumat verib. O, ötən il "İslam Həmrəyliyi İli" çərçivəsində Qafqaz Müsəlmanları İdarəsi tərəfindən təşkil olunan bir sıra beynəlxalq konfranslarda iştirak etdiyini diqqətə çatdırıb.

Sonda qonaqlara Dövlət Komitəsinin ingilis dilində nəşr etdirdiyi, ölkəmizin tolerant və multikultural mühitindən bəhs edən kitablar hədiyyə edilib. Görüşdə Dövlət Komitəsinin sədr müavinləri Səyavuş Heydərov, Gündüz İsmayılov, Rumıniyanın Azərbaycandakı səfiri Dan İanku da iştirak ediblər. Qeyd edək ki, Viktor Opaskinin başçılıq etdiyi nümayəndə heyəti Mübariz Qurbanlının dəvəti ilə ölkəmizdə səfərdədir.

# Cəmil Quliyevin İTV-nin baş direktoru vəzifəsində səlahiyyətlərinə xitam verilib



İctimai Televiziya və Radio Yayımları Şirkətinin Yayım Şurasından AZƏRTAC-a daxil olan məlumata görə, İTV Yayım Şurasının dünənki iclasında telekanalın baş direktoru Cəmil Quliyevin səlahiyyətlərinə xitam verilib. Məlumatda qeyd olunub ki, C.Quliyev səhhəti və gələcək yaradıcılıq planları ilə əlaqədar vəzifədən getmək istəyi ilə bağlı şuraya rəsmi müraciət edib və müzakirədən sonra müvafiq qərar qəbul olunub. Şuranın iclasında Balakişi Qasımov İTV-nin yeni baş direktoru seçilib. Məsələ ilə əlaqədar açıqlama verən Cəmil Quliyev deyib ki, səhhətində yaranmış problemlər, eyni zamanda, həm İTV-nin baş direktoru kimi məsuliyyətli vəzifənin keyfiyyətli icrasına, həm də çoxsaylı yaradıcılıq planlarını həyata keçirməsinə imkan verməyib: "Ona görə də belə qərara gəldim ki, bundan sonra yalnız mədəniyyət, incəsənət və elm sahəsində, habelə ictimai fəaliyyətimi davam etdirim və nəzərdə tutduğum planları həyata keçirim. Mən İTV-nin baş direktoru vəzifəsində göstərilən etimada görə, ilk növbədə, Azərbaycan Prezidenti cənab İlham Əliyevə minnətdarlığımı bildirirəm. Eyni zamanda, İTV Yayım Şurasının üzvlərinə, televiziyanın kollektivinə təşəkkür edir və onlara gələcək fəaliyyətlərində yeni-yeni uğurlar arzulayıram.

Onu da deməyi özümə borc bilirəm ki, hansı sahədə çalışmağımdan asılı olmayaraq, həmişə cənab Prezidentin sadiq əsgəri olacağam, Azərbaycan mədəniyyətinin, incəsənətinin inkişafına bacardığım töhfəni verməyə çalışacağam".

# "Erməni inqilabı": mif və reallıq

*Hazırda Ermənistanda baş verən siyasi hadisələrə iki səviyyədə baxmaq olar. Birincisi, vassal, forpost dövlətin daxili sosial, siyasi və iqtisadi reallıqları aspektində. İkincisi, regional və qlobal geosiyasi proseslərin dinamikası kontekstində. Bu iki baxışı vahid məntiqi düzənə gətirmək mümkün olsa, onda Cənubi Qafqazın bu qondarma dövlətində nələrin baş verdiyinin həqiqi üzünü görə bilərik. Hətta qısa təhlil göstərir ki, erməni siyasi şüurunda heç bir dəyişiklik yoxdur. Demokratiyadan isə söhbət gedə bilməz. Çünki iqtisadiyyatı, siyasəti və təfəkkürü kölə vəziyyətində olan cəmiyyətin demokratikləşməsi imkansızdır. Erməni şüuru isə əsrlərdir ki, kənar ssenarilər üzrə siyasiləşib. Bu səbəbdən Paşinyan da erməni ssenarisi deyil. Ermənistana ağalıq edənlərin yeni bir oyunudur. Bunun üzərində bir qədər geniş dayanmaq istərdik.*




## Küçə məntiqinin idarəetməyə gətirilməsi: erməni demokratiyasının real siması

Ermənistan virtual və siyasi konyunktura olaraq uğurla keçən əsrin 90-cı illərinin əvvəllərinə yuvarlana bildi. Küçə zorakılığını "rəngli inqilab" kimi qələmə verməyə çalışan erməni "mütəxəssislər" və onların ağaları, əslində, növbəti dəfə erməni xalqını quyunun dibinə çəkirlər. Nikol Paşinyan adlı dissidentin "qəhrəmanlıq dastanı" kimi görünən kütlə üsyanının arxasında hansı məqamlar ola bilərdi?

Sualı ona görə bu formada qoya bilirik ki, Ermənistanda innovasion hərəkatı meydana çıxara biləcək heç bir siyasi, sosial, mədəni və geosiyasi şərait yoxdur. N.Paşinyan tamamilə süni bir faktordur və onu ortaya atanların əsl planları bir qədər sonra hətta ermənilərə belə aydın olacaq. Əslində, onun bir sıra əlamətləri elə indidən sezilir. Bu barədə Ermənistanda bir sıra KİV orqanları ehtiyatlı da olsa, yazılar dərc etməyə başlayıblar. Sualı əsasən "inqilabdan sonra Paşinyanın demokrat kimi fəaliyyət göstərməsi potensialı mövcuddurmu?" çərçivəsində qoyurlar. Cavab isə eynidir: bu potensial Paşinyan baş nazir kreslosuna əyləşəndən tükənib!

Hadisələrin daxili məntiqi və görüntü xronologiyasına kənar müşahidəçi mövqeyindən nəzər salaq. Öncə, innovasiya gətirə biləcək bir hərəkatın başında əvvəllər tanınmayan birisinin necə dayandığı maraqlıdır. Levon Ter-Petrosyan təcrübəli siyasətçi və Ermənistan miqyasında demokratik düşüncəli dövlət xadimidir, ancaq onun bu hərəkatda rolu yoxdur. N.Paşinyan isə həbsdə olmuş və müəmmalı şəkildə vaxtından xeyli əvvəl azadlığa buraxılmış, natamam ali təhsilli küçə üsyançısı! Ermənistanda korrupsiyaya qarşı təsirli mübarizə aparıb, ölkəni demokratikləşdirəcək adam budurmu?

N.Paşinyan küçədə olanda üzərinə düşən funksiyanı yerinə yetirə bilərdi. O, təzyiq etdi, Serj Sarkisyan istefa verdi. Sonra yenə təzyiqlə baş nazirlik üçün səs aldı. Bu siyasəti davam etdirərək, İrəvanın merini təzyiqlə dəyişdi. Ancaq sonuncu halda daha az insan kütlə liderinə arxa durdu. Deməli, sadə insanlar artıq düşünürlər ki, əgər hər şey seçki və institusional qurumların fəaliyyəti ilə deyil, küçədən olan təzyiqlərlə baş verəcəksə, bunun adı nədir? N.Paşinyan isə demokratik üsulla nəyisə yeniləməyin heç bir demokratik mexanizmini təklif edə bilmir. Bu sahədə o, keçən əsrin 90-cı illərinin əvvəllərindəki erməni siyasi şovinizmi, ultramillətçiliyi və antisivilliyindən bir addım belə irəli gedə bilməyib. Deməli, Ermənistan adlanan vassal dövlətin başı keçmişdə qalan və bədəni epileptik titrəyişlər edən orqanizmdir.

Yeni baş nazir ilk "səfəri"ni Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsinə edir və orada məntiqsiz mövqe ortaya qoyur. Deyir ki, ərazidən danışmayın, Azərbaycan Aprel döyüşlərində göstərdi ki, təcavüzkardır. Baxın, baş nazir olan biri çox ciddi beynəlxalq təsiri olan münaqişə barədə necə sadəlövh, küçə məntiqi və əxlaqsızca danışır. Münaqişə ilə əlaqəli BMT, Avropa Şurası, AŞPA, İƏT, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatların qəbul etdiyi sənədləri inkar edir və özünü psixopat varlıq kimi aparır. Bu adam hansı cəmiyyətdə hansı yenilikləri edə bilər? O da özündən əvvəlki erməni liderlər kimi Dağlıq Qarabağda tökdükləri günahsız insanların qanında boğulmağa məhkumdur. Ermənistanda münaqişəni beynəlxalq hüquq normaları çərçivəsində həll etməyin zəruriliyini dərk edən adam (əgər o, ümumiyyətlə, varsa) hakimiyyətə gəlməyənə qədər, bu ölkədə normal vəziyyət mövcud olmayacaq. Yeni N.Paşinyan da Ermənistanı təcrid mövqeyindən çıxara bilməyəcək.

## Qapalı dairə: Paşinyana manevr məhdudiyyəti qoyanlar

Əksinə, siyasi proqnozlar başqa məqamlardan xəbər verir. Belə təəssürat yaranır ki, Ermənistanın havadarları qəsdən Nikol Paşinyana yol açdılar ki, siyasi populizmin gətirə biləcəyi faciələri əyani anlatsınlar. İndi N.Paşinyan deyir ki, korrupsiyaya qarşı ciddi mübarizə aparacaq, o cümlədən "Qazprom", "Rosneft" və başqa şirkətlərin Ermənistandakı monopoliyasına son qoyacaq. Bunlarla yanaşı, Qərbin böyük şirkətlərini də ölkəyə gətirəcək. Buna Moskvadan dərhal reaksiya verildi. "Qazprom"un vitse-prezidenti ifadə etdi ki, "ermənilər cəhənnəm olub getsinlər, onlar bizdən başqa kimlərə lazımdırlar ki?"

Aydındır ki, Rusiya şirkətinin rəhbərlərindən birinin bu cür danışması onu göstərir ki, Kreml Ermənistanı müstəqil dövlət kimi qəbul etmir, ona özünün əyalətlərindən biri kimi baxır. Hətta ən hörmətsiz əyalət kimi yanaşır. Bu birinci dəfə deyil ki, Rusiyanın yüksəkvəzifəli adamları erməniləri aşağılayan fikirlər söyləyirlər. Deməli, Ermənistanda Rusiyanın icazəsi olmadan bir quş belə uça bilməz. Bu baxımdan N.Paşinyan bir heçdir - Kreml onu milçək kimi əzər.

Digər tərəfdən, Rusiyadan açıq mesaj verilir - İrəvan Moskvanın qəbul etmədiyi bir addım belə ata bilməz. Həmin bağlılıqda N.Paşinyan Gürcüstanla münasibətlərin strateji məzmununu dəyişə bilməz. Baxmayaraq ki, Gürcüstanı o, çox vacib qonşu dövlət adlandırıb, yaxınlıqdan dəm vurub. Bu məsələ İrəvanla Tbilisinin iradəsini aşır. Qərbin Ermənistan naminə Rusiya ilə böyük toqquşmalara gedəcəyini düşünmək isə çox əsassız bir hal olardı. Çünki 2008-ci ildə rus tankları Gürcüstanı əzib keçəndə belə Vaşinqton, London, Paris və Brüssel heç nə edə bilmədilər. Qərb analitikləri açıq yazırlar ki, Gürcüstana görə Rusiya ilə ciddi qarşıdurmaya gedilməyəcək.

Belə çıxır ki, Ermənistanla bağlı da Qərb Rusiya ilə münasibətlərdə radikal dəyişiklikləri göz önünə ala bilməz. Cənubi Qafqaz bir yana, heç Yaxın Şərqdə bunu edə bilmirlər. Bunlar onu göstərir ki, N.Paşinyan istəsə belə Moskvanın çəkdiyi xətdən kənara addım ata bilməz. Əgər cəhd etsə, onda cəzasını alacaq.

Bunlar onu göstərir ki, Ermənistandakı "inqilab", birincisi, saxtadır. Orada real olaraq heç bir hərəkat yoxdur. Bir sıra dairələr S.Sarkisyanı ondan ağıllı olmayan başqası ilə əvəzlədilər.

İkincisi, Ermənistanda böyük mənada sosial, siyasi, mədəni və iqtisadi islahatlar baş tutmayacaq. Bunun yeganə yolu Azərbaycana qarşı olan təcavüzdən imtina etməkdən və işğal altındakı ərazilərdən qeyd-şərtsiz çıxmaqdan ibarətdir.

Üçüncüsü, Ermənistanın daxili siyasi vəziyyəti antidemokratik elementlərlə zəngindir. Əgər N.Paşinyan demokratik seçki təşkil etmək əvəzinə öz mövqeyini möhkəmlətmək xəttini seçsə (hələlik məhz bu tendensiya üstünlük təşkil edir), Ermənistan yaxın zamanlarda növbəti silkələnməyə məruz qalacaq. Ekspertlər hesab edirlər ki, N.Paşinyan "islahatlara" polis və təhlükəsizlik xidmətindən başlayırsa, deməli, özünə uyğun olmayan kəsimləri korrupsiya ilə mübarizə adı altında zərərsizləşdirmək kursunu seçib. Ölkədə sosial-iqtisadi vəziyyət çox ağırdır, ancaq N.Paşinyan güc strukturlarını möhkəmlədir.

Məsələ belədir ki, korrupsiya ilə real mübarizə bu mənfi halı doğuran idarəetmə fəlsəfəsini yeniləmək əsasında aparılmalıdır. Kimlərisə tutub həbsə atmaqla yalnız daxili vəziyyəti gərginləşdirməyə nail olmaq mümkündür. Bir zamanlar Mixeil Saakaşvilinin həbslərinə "ura" deyənlər indi başqa məqamlardan bəhs edirlər. Hətta M.Saakaşvilini qanunu pozmaqda, cəmiyyəti parçalamaqda ittiham edirlər. Eyni aqibət N.Paşinyanı da gözləyirmi?

Deməli, real islahatların demokratik qaydada aparılması tamamilə fərqli yanaşma tələb edir. Buna isə N.Paşinyanın siyasi iradəsi, nəzəri və praktiki hazırlığı qətiyyən cavab vermir. Baxın, o, siyasi demokratiyanı ifadə edən hansı ideyanı irəli sürüb? Hələlik yıxıb-dağıtmaqdan başqa heç nəyi nəzərdə tutmayan cümlələrdən, tələblərdən, absurd vədlərdən başqa heç bir fikir söyləməyib, yaxud təklif irəli sürə bilməyib. Onun haqqında yüksək pafosla deyilən sözlərə fikir verməK ağılsızlıq olardı, hansısa erməni "ekspert"in bütövlükdə Avrasiyada islahatların erməni variantından bəhs etməsi öz eqoizminə vurğunluqdan başqa bir şey deyildir. Bunlardan bir məntiqi nəticə hasil etmək olar: Nikol Paşinyan real siyasi hərəkat deyil, növbəti ideoloji mirajdır. Bunun həm erməni xalqı, həm də region üçün hansı geosiyasi nəticələr verəcəyini isə zaman göstərəcək. Biz, bu məsələdə optimist deyilik.

**Newtimes.az**

# “Tarix belə absurd faktlarla zəngindir”

## Nə qədər ki, ABŞ Helsinki Komissiyası Kris Smit kimi ermənipəstliyini gizlətməyən qüvvələrin təsirindədir, bu qurumdan heç də ədalətli yanaşma gözləmək olmaz

*Məlum olduğu kimi, ABŞ-ın Helsinki Komissiyasında Azərbaycandakı seçkilər və fundamental azadlıqlarla bağlı keçirilən dinləmələrdə ölkəmizə qarşı növbəti qərəzli fikirlər səsləndirilib. Məsələyə münasibət bildirən müsahiblərimiz ABŞ-ın Helsinki Komissiyasının Azərbaycana qarşı qərəzinin arxasında bu təşkilata ermənipərəst Kristofer Smitin rəhbərlik etməsi ilə əlaqələndirdilər.*

### Jurnalistlərin Həmkarlar İttifaqının sədri Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli:



- ABŞ-ın Helsinki Komissiyasının Azərbaycandakı seçkilər və fundamental azadlıqlarla bağlı yanaşmasını şərh etmək üçün yaxın tarixə qısa ekskurs etmək kifayətdir. Bu qurum və onun təsir dairəsində olan şəxslər Azərbaycanla bağlı münasibət və rəylərində yalnız qara rəngdə görünüblər. Məsələ ondadır ki, onlar Azərbaycanı heç vaxt real olaraq neqativ əməlinə, yaxud hansısa çatışmazlığına görə tənqid etməyiblər. Onlar həmişə Azərbaycanın bir uğuru olanda, hansısa nailiyyət qazananda aktivləşirlər və bu uğurlara kölgə salmağa çalışırlar. Artıq bu fakt özünü dəfələrlə təsdiq edib. Uzağa getməyək, 2015-ci ildə Bakıda Avropa Oyunları keçiriləndə həmin komissiyanın necə əks-prizmada aktiv fəaliyyət göstərdiyinin şahidi olduq. Həmin vaxt Nyu-Cersi ştatının təmsilçisi Kris Smitin ABŞ Helsinki Komissiyası adından Konqresə “Azərbaycanda Demokratiya Aktı” qanun layihəsini təqdim etdi və təkidlə tələb etdi ki, ölkəmizə qarşı sanksiyalar tətbiq edilsin. Tarixdə bu cür faktlar onlarcadır. İkinci bir misalla bunu yekunlaşdırmaq istərdim. ABŞ Konqresi Azərbaycana qarşı ən sərt, anlaşılmaz münasibəti 1992-ci ildə, Azərbaycanın müstəqilliyinin ilk ilində göstərib. Sovet rejimindən xilas olaraq öz müstəqilliklərinə qovuşmuş xalqlara, respublikalara yardım üçün ABŞ Konqresi “Azadlığı müdafiə aktı” qəbul edib. Həmin akt çərçivəsində yeni elan edilmiş respublikalara həm siyasi, həm də maddi yardım göstərilib. Bu sırada təkcə Azərbaycan kənar tutulub. 1992-ci ilin oktyabr ayında qəbul edilmiş “Azadlığı müdafiə aktı”na həmin ilin dekabr ayında “907-ci düzəliş” əlavə edilib. Bu düzəlişə əsasən, sovet zülmündən xilas olmuş respublikalardan yalnız birinə - Azərbaycana yardım göstərilməsinə qadağa qoyulub. Səbəb kimi isə Azərbaycanın Ermənistanı və Qarabağı blokadaya alması göstərilib! Tarix belə absurd faktlarla zəngindir. ABŞ Helsinki Komissiyası nə qədər ki, Kris Smit kimi ermənipəstliyini gizlətməyən şəxs və qüvvələrin təsirindədir, bu qurumdan heç də ədalətli yanaşma gözləmək olmaz. Əgər Helsinki Komissiyası dünyada demokratiyanın bərqərar olması dərdini çəkirsə, onda araşdırsın ki, niyə ABŞ media azadlığı indeksində heyrətamiz dərəcədə geriləyərək 45-ci yerə düşüb? Niyə hər il onlarla insan ABŞ-da irqinə və rənginin dərisinə görə qətlə yetirilir? Əvvəl özlərində demokratiyanı bərqərar etsinlər, sonra başqa ölkələr barədə fikirləşsinlər.

### “Xalq Cəbhəsi” qəzetinin baş redaktoru, politoloq Elçin Mirzəbəyli:



- ABŞ Helsinki Komissiyasına Kristofer Smit rəhbərlik edir. K.Smit 1992-ci ildə Azərbaycan əleyhinə qəbul olunmuş “907-ci düzəliş”in həm müəlliflərindən və həm də təşəbbüsçülərindən biridir. Eyni zamanda, təxminən 14 il ərzində bu şəxsin 20 dəfədən çox qondarma “erməni soyqırımı”nın ABŞ Konqresində tanınması ilə bağlı təşəbbüsləri olub. K.Smit ABŞ-da olan Ermənistan diasporası ilə açıq şəkildə əməkdaşlıq edir. Yəni bu şəxs ermənilri özünün böyük dostu adlandırır və bunu sübuta yetirmək üçün də Azərbaycana qarşı aparılan bütün kampaniyaların ön cərgəsində yer alır. Deməli olar ki, cəbhədə atəşkəs pozulanda Smit bu atəşkəsin, məhz Azərbaycan tərəfindən pozulduğunu bildirir. Yəni burada işğal faktını dəqiq dilə gətirmir. Eyni zamanda, Azərbaycan torpaqlarında yaradılan separatçı rejimi dəstəkləyərək, müdafiə edib və Azərbaycanın erməni demokratiyasını pozmağa çalışdığını vurğulayır. Əslində isə, Azərbaycan əleyhinə mövqe sərgiləyən bir insanın təşkil etdiyi kampaniyanın mahiyyətini sübut etməyə ehtiyac yoxdur. Bütün bu proseslər vahid bir mərkəzdən idarə olunur. Bu proseslərdə müxtəlif qruplardan olan insanlar yer alıblar. O cümlədən də, xaricdə yaşayan ayrı-ayrı marginal azərbaycanlılar da bu prosesdə yer alır və erməni diasporu və erməni lobbisi ilə vahid bir mövqedən çıxış edirlər. Əslində, bu mövqedən çıxış etmək Azərbaycan torpaqlarının işğalı prosesinə, faktiki olaraq, dəstək verməkdən ibarətdir. Burada korporativ maraqlar da var. Xaricdəki şəxslərə, bilavasitə vəsaitlər ötürənlərin məqsədi Azərbaycanda həyata keçirilən islahatları əngəlməkdən və ölkənin inkişafına mane olmaqdan ibarətdir. Başqa qruplar isə çalışırlar ki, Azərbaycanın nüfuzuna xələl gətirməklə danışıqlar prosesində ölkəmizin mövqelərini zəifl ətsinlər. Bu baxımdan da, aparılan dinləmələrin mahiyyəti də bəllidir. Son 14 il ərzində Helsinki Komissiyası Azərbaycan əleyhinə 15-dən artıq dinləmə keçirib. Bunların da hər birində, məhz ermənipərəst konqresmenlər, Azərbaycan əleyhinə fəaliyyət göstərən qurumlar, eyni zamanda, erməni təşkilatları fəal şəkildə iştirak ediblər. Lakin bu illər ərzində bir dəfə də olsun Ermənistanla bağlı hər hansı bir dinləmə keçirilməyib. Hətta mitinqlərdə insanların qətlə yetirildiyi, kütləvi həbslərin həyata keçirildiyi zaman Ermənistanla bağlı hər hansı bir dinləmənin keçirilməsinin şahidi olmamışıq. Bütün bunlar sübuta yetirir ki, prosesin əsas mahiyyətində, bilavasitə Azərbaycanın beynəlxalq nüfuzunun zədələnməsi dayanır . Məqsəd isə, şübhəsiz ki, ermənilərin maraqlarını müdafiə etməkdir.

### Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri Anar Xəlilov:



- Helsinki Komissiyası daim Azərbaycan haqqında qərəzli fikirləri ilə bizə tanışdır. Bu təşkilat erməni lobbisi tərəfindən maliyyələşən bir qurum olduğu məlumdur. Ermənistanın Azərbaycan torpaqlarının işğal etməsi və bir milyona yaxın qaçqın və məcburi köçkün olmasına dair bir dəfə də olsa Helsinki Komissiyası bir bəyanat veribmi? Təbii ki, yox. Burdan da aydındır ki, bu komissiya kimin mənafeyini qoruyur və xidmət edir. Erməni lobbisinin təsiri altında olan bir qurumdan Azərbaycana qarşı başqa mövqe gözləmək də olmaz. Hesab edirəm ki, bu cür qurumların artıq bugünkü beynəlxalq siyasi aləmdə də nüfuzları və təsir dairələri sıfıra bərabərdir. Dünyanın əsas aparıcı iqtisadi



və siyasi araşdırmalar institutları Azərbaycanın inkişafından müsbət rəylər verirlər. Hər şey göz qarşısındadır. Bu gün biz inamla inkişafa doğru gedirik və bu cür cılız bəyanatlar bizi yolumuzdan döndərə bilməz.

### İnsan Hüquqları XXI əsr Fondunun sədri Şahin Camalov:

- Biz dəfələrlə bu məsələyə münasibət bildirmişik. Azərbaycana qarşı beynəlxalq təşkilatların və xarici ölkələrin, xüsusi ilə ABŞ və Qərb ölkələrinin münasibəti heç bir zaman birmənalı olmayıb. Hər zaman onlar Azərbaycana “demokratiya”, insan hüquqları kimi faktorları özlərinə sərf edən formada sırımağa çalışırlar. Hesab edirəm ki, Helsinki Komitəsi ilə erməni lobbisinə xidmət edən müəyyən azərbaycanlı dairələr və şəxslər əməkdaşlıq edirlər. Düşünürəm ki, bu tip Azərbaycana qarşı olan qərəzli münasibət hər zaman mövcud olub və bundan sonra da davam edəcək. Azərbaycanda keçirilən seçkiləri onlarla yerli və beynəlxalq təşkilatlar müşahidə etdi. Onların birmənalı mövqeyi ondan ibarət oldu ki, seçkilər azad və demokratik şəkildə baş tutub. Seçkinin vəziyyətini monitorinq etməyən və müşahidələr aparmayan bir qurumun Azərbaycanda seçkinin nəticələrini tənqid etməsi, ümumiyyətlə qeyri - ciddilikdən xəbər verir. Onlar inkişaf etmiş Azərbaycan dövlətinin uğurlarına kölgə salmaq üçün hər cür iyrənc vasitə və üsuldan istifadə edirlər. Əslində isə, onların hesabatlarını ciddiyyətə almaq olmaz. Çünki bu təşkilatlar ciddiyə alınacaq təşkilatlar deyil.

**GÜLYANƏ**

## Berat Albayrak: “TANAP qaz boru kəməri iyunun 12-də istismara veriləcək”

Azərbaycan təbii qazını Türkiyəyə və oradan da Avropaya nəql edəcək Trans-Anadolu qaz boru kəməri (TANAP) iyunun 12-də istismara veriləcək. AZƏRTAC Anadolu Agentliyinə istinadla xəbər verir ki, bu barədə Türkiyənin energetika və təbii sərvətlər naziri Berat Albayrak deyib. Xatırladaq ki, bundan öncə SOCAR-ın Sərmayələr İdarəsinin rəisi Vaqif Əliyev iyunun 19-da TANAP-ın açılış mərasiminin keçiriləcəyini demişdi.

## Azərbaycanda 2 milyon 126 min 910 abonent təbii qazla təmin edilib

Azərbaycanda təbii qazla təmin olunan abonentlərin sayı 2 milyon 126 min 910-a çatıb. SOCAR-ın “Azəriqaz” İstehsalat Birliyindən AZƏRTAC-a bildirilib ki, bu ilin yanvar-aprel ayları ərzində əhali sektoru üzrə 31 min 62 yeni abonent qeydiyyata alınıb. Bunun da 19 min 717-si Bakı, Abşeron və Sumqayıt, 11 min 345-i isə regionlar üzrədir. Yeni abonentlərin sayının artmasında abonent bazasının daha da genişləndirilməsi istiqamətində işlərin aparılması, yaşayış məntəqələrinin qazlaşdırılması və qaz təminatının bərpa edilməsi, həmçinin təbii qazla təmin olunmuş ərazilərin genişlənən hissələrindəki fərdi yaşayış evlərinin qazlaşdırılması olub. Bundan başqa, Bakı şəhəri, ətraf qəsəbə və kəndlərdə abonentlərin qaz təchizatının yaxşılaşdırılması məqsədilə qaz kəmərlərinin yenidən qurularaq şəbəkənin genişləndirilməsi istiqamətində aparılan məqsədyönlü işlər öz müsbət nəticəsini göstərib. Aparılan işlər nəticəsində ölkə üzrə təbii qazla təmin olunan abonentlərin sayı 2 milyon 126 min 910-a çatıb.

## Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi qarşısında

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ - DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİNİN DAVAMI KİMİ

***Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin, məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində -XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır.***

**Heydər Əliyev**

Azərbaycan ərazisi dünyanın ən qədim insan məskənlərindən biridir və bunu təkzibedilməz dəlillərlə sübut edən arxeoloji abidələrimiz kifayət qədərdir. Azərbaycan ərazisində hələ qədim dövrlərdən başlayaraq yüksək mədəniyyət nümunələri yaranmışdır. Ümummilli Lider Heydər Əliyev deyirdi: "Azərbaycan insanın, bəşəriyyətin beşiyi olan nadir ölkələrdən biridir. Burada həyat çox erkən yaranmışdır və Azıx mağarasında tapılmış Azıxantrop Azərbaycanın ən qədim ibtidai insan məskənlərindən birinin olmasını sübut edir. Qobustandakı və Gəmiqayadakı qayaüstü təsvirlər və petroqliflər, Kür-Araz və Xocalı mədəniyyətlərinə aid maddi mədəniyyət nümunələri, eləcə də, Kurqan tapıntıları sübut edir ki, hətta miladdan əvvəlki minilliklərdə də Azərbaycanda inkişaf etmiş mədəniyyət mövcud olmuşdur". Azərbaycan xalqı zəngin, qəhrəmanlıq səhifələri ilə dolu olan tarixi ilə hər zaman qürur duyub.

Ölkəmizin ərazisində dövlətçilik ənənələrinin tarixi 5 min il əvvəllərə gedib çıxır. Belə ki, Azərbaycan torpaqlarında ilk dövlət qurumları hələ eramızdan əvvəl IV minilliyin sonu - III minilliyin əvvəllərindən başlayaraq yaranmışdı. Bu qədim Azərbaycan dövlətləri regionun güclü dövlətlərindən olmaqla, hərbi-siyasi tarixində mühüm rol oynayırdılar. Həmin dövrdə qədim Azərbaycan dövlətləri ilə Dəclə və Fərat vadilərində yerləşən və dünya tarixində dərin iz qoymuş qədim Şumer, Akkad və Aşşur (Assuriya) dövlətləri, habelə, Kiçik Asiyadakı Het dövləti arasında sıx qarşılıqlı əlaqələr vardı. Böyük etnik yerdəyişmələr nəticəsində Qafqaz ərazisində sakinlərin sayı yüksəlmişdi. Burada Qafqaz regionundan kənarda da yaxşı tanınan ilk dövlət formaları peyda olmuş, müasir xalqların qədim əcdadları olan avtoxton xalqların etnogenezisi formalaşmışdı.

Paytaxtı Qəbələ olan Qafqaz Albaniyası dövləti eramızdan əvvəl IV əsrdə yaranıb. IX əsrin ortalarından Azərbaycanın qədim dövlətçilik ənənələri yenidən dirçəldi. Azərbaycanda yeni siyasi dirçəliş başlandı: islam dininin yayılmış olduğu Azərbaycan torpaqlarında Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər və Şəddadilər dövlətləri yarandı. XV-XVIII əsrlərdə və bundan sonrakı dövrdə Azərbaycanın dövlətçilik mədəniyyəti daha da zənginləşdi. Şirvanşahlar dövləti, Ağqoyunlu dövləti, Qaraqoyunlu dövləti, Səfəvi dövləti kimi Azərbaycan dövlətləri tarixə öz səhifələrini yazdılar. Bunların hər birinin milli dövlətçilik tariximizdə xüsusi xidmətləri olub. Bu dövrdə Şərqin geniş ərazili Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Əfşar və Qacar imperiyaları, bilavasitə Azərbaycan sülalələri tərəfindən idarə olunurdu. XIV-XV əsrlərdə Qara Yusifin dövründə Qaraqoyunlular güclü imperiyaya çevrilmişdilər. 1467-ci ildə Uzun Həsən tərəfindən bu imperiyaya son qoyuldu. 1468-ci ildə, o, Ağqoyunlu imperiyasının əsasını qoyur. Ağqoyunlu hökmdarları Uzun Həsən, Sultan Xəlil və Sultan Yaqubun dövründə Ağqoyunlu imperiyasında elm və incəsənət yaxşı inkişaf etmişdi. Lakin 1501-ci ildə bu imperiya I Şah İsmayıl tərəfindən süqut etdirilərək yeni bir imperiyaya - Səfəvi imperiyasına çevrildi. Bu dövlət orta əsrlərdə Azərbaycan dövlətçiliyi tarixində yeni təkamül mərhələsinin başlanğıcı idi. 235 il mövcud olan Səfəvilər hazırkı Azərbaycan, İran, Ermənistan, İraq və digər əraziləri əhatə edən böyük bir imperiya idi. Səfəvilər imperiyası dağıldıqdan sonra 1736-1747-ci illərdə Əfşarlar dövləti mövcud olmuşdur. Nadir şah Əfşarlar dövlətinin banisi idi. O, əvvəlki dövrdə Rusiya və Osmanlı tərəfindən itirilmiş əraziləri geri qaytarmışdı. 1794-cü ildə Qacarlar yeni dövlətin əsasını qoydular. Bu Azərbaycan sülaləsi isə 1925-ci ilə qədər hakimiyyətdə olmuşdur.

Göründüyü kimi, ötən yüzilliyə qədər olan uzun bir dövr Azərbaycan tarixində zəngin olmuş və müxtəlif dövlətlərin yaranması ilə səciyyələnmişdir. XX əsrdə Azərbaycan xalqı iki dəfə müstəqillik əldə etmişdir: 1918-ci və 1991-ci illərdə. 1918-ci ildə yaranmış və fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyəti dövlətçilik ənənələrimizin davamı idi. Azərbaycan Xalq Cümhuriyyəti, Naxçıvan və Şərur-Dərələyəz qəzalarını özündə birləşdirən Araz-Türk Respublikası, həmçinin rəhbərləri, əsasən, azərbaycanlılardan ibarət Cənubi-Qərbi Qafqaz Cümhuriyyəti qısa ömür sürmüş, Sovet imperiyasının işğalçılıq siyasətinin qurbanı olmuşdur. Lakin onların hər biri, xüsusən də, Azərbaycan Xalq Cümhuriyyəti dövlətçiliyimizin yaranması və inkişafında, xalqımızın tarixi taleyində böyük rol oynamışlar. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı qeyd etdiyi kimi, "ən böyük nailiyyət, tariximizə yazılmış qızıl səhifə ondan ibarətdir ki, çoxəsrlik tariximizdə ilk dəfə Azərbaycan xalqı dövlət müstəqilliyini əldə edə bilmişdir, müstəqillik əhval-ruhiyyəsini hiss edə, dərk edə bilmişdir, müstəqil yaşamaq, öz taleyinin sahibi olmaq duyğularını dərk edə bilmişdir" [Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Altıncı kitab. Bakı: Azərnəşr, 1998, 527 s./s. 308].

Məlum olduğu kimi, XX yüzilliyin əvvəllərində Rusiya imperiyası dərin hərbi-siyasi və iqtisadi böhranla üzləşmişdi. Rusiya bu ciddi problemi həll etmək üçün islahatlara başlamaq məcburiyyətində qalmışdı. Azərbaycan ziyalıları hələ 1905-ci ildən başlayaraq, bütün başqa tələblərlə bərabər, ölkənin türk-müsəlman əhalisinin imperiyanın mərkəzi hakimiyyət orqanlarında təmsil edilməsini, yerli idarəçiliyə və məhkəmə orqanlarında fəaliyyətə cəlb olunmasını tələb edirdilər. Onlar bu sahədə ayrıseçkiliyin və məhdudiyyətin aradan qaldırılması uğrunda gərgin mübarizə aparırdılar.



Birinci Dünya müharibəsinin sonlarına yaxın "xalqlar həbsxanası" sayılan Rusiya imperiyasının dağılması artıq qaçılmaz xarakter almışdı. Belə bir dövrdə Azərbaycan xalqı həm qədim dövlətçilik ənənələrinə, həm də ən müasir idarəçilik mədəniyyətinə yiyələndiyindən müstəqil dövlət halında yaşamağa tam hazır idi.

Azərbaycan ziyalılarından bəziləri, o cümlədən, Əlimərdan bəy Topçubaşov başda olmaqla peşəkar hüquqşünaslar Rusiyanın Dövlət Dumasında zəngin parlamentçilik təcrübəsi qazanmışdılar. Onlar nifrət etdikləri və qəddar milli müstəmləkə zülmünün hökmranlıq etdiyi Rusiya mütləqiyyətindən tamamilə fərqlənən, bütün hüquq və azadlıqların təmin olunduğu ən demokratik respublika sistemi yaratmağa hazır idilər. Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin demokratik dövlət yaratmaq ideyaları onların hələ Rusiya Dövlət Dumasında fəaliyyət göstərdikləri dövrdə formalaşmışdı. Buna görə də, Azərbaycan Xalq Cümhuriyyətinin parlamentli bir respublika kimi formalaşması tarixi reallıqdan doğurdu. Çarizmin devrilməsindən sonrakı hadisələrin real inkişafı da, məhz bu istiqamətdə gedirdi.

1917-ci ilin fevralında Rusiyada 300 illik Romanovlar mütləqiyyəti devrildi. Monarxiya rejimi aradan qaldırıldıqdan sonra hakimiyyətə gələn Müvəqqəti Hökumət Cənubi Qafqazın idarəçiliyi üzrə Xüsusi Komitə yaratdı. Lakin Müvəqqəti Hökumət uzun müddət hakimiyyətdə qala bilmədi. 1917-ci ilin oktyabrında V.Leninin rəhbərliyi ilə bolşeviklər partiyasının çevrilişi baş verdi. Hakimiyyət dəyişikliyi nəticəsində Cənubi Qafqazdan Rusiyanın Müəssislər Məclisinə seçilən deputatlar Petroqrada və Moskvaya gedə bilmədilər. Onlar 1918-ci il fevralın 14-də Tiflisdə Zaqafqaziyanın ali hakimiyyət orqanı olan Zaqafqaziya Seymini, başqa sözlə, Zaqafqaziya Parlamentini yaratdılar.

Zaqafqaziya Seymində müsəlman fraksiyasını Müəssislər Məclisinə seçkilər zamanı Azərbaycanın, habelə bütün Cənubi Qafqazın bir milyondan çox türk-müsəlman seçicisinin səsini qazanmış 44 deputat təmsil edirdi.

Demək olar ki, üç ay fəaliyyət göstərən Seymdə Gürcüstandan sosial-demokratlar (menşeviklər) - 32 nəfər, Azərbaycandan müsavatçılar və onlara qoşulmuş bitərəf demokratlar - 30 nəfər və ermənilərin "Daşnaksutyun" partiyası - 27 nəfər deputatla iştirak edirdi. 1918-ci il aprelin 22-də Zaqafqaziya Seyminin azərbaycanlı, erməni və gürcü deputatları paytaxtı Tiflis olmaqla Zaqafqaziya Demokratik Federativ Respublikasının yaradıldığını elan etdilər. Lakin sonradan Cənubi Qafqazın bir dövlət halında fəaliyyət göstərməsinin qeyri-mümkün olduğu məlum oldu. 1918-ci il mayın 26-da Cənubi Qafqaz Seyminin son iclası keçirildi. Gürcüstanın federasiyanın tərkibindən çıxmasını bəyan etməsindən sonra seym özünü buraxdığını elan etdi. Növbəti gün artıq buraxılmış Zaqafqaziya Seyminin müsəlman fraksiyasının iclasında Müvəqqəti Milli Şuranın yaradılması qərara alındı. Şuranın sədri M.Ə.Rəsulzadə, müavinləri isə H.Ağayev və M.Seyidov seçildilər.

Mayın 28-də Tiflis şəhərində Qafqaz canişininin binasında Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycan Milli Şurasının tarixi iclası keçirildi. M.Ə.Rəsulzadə Azərbaycanın müstəqilliyinə dair Batumda Osmanlı imperiyası ilə danışıqlar apardığından, İstiqlal Bəyannaməsinin elan olunduğu iclasa Azərbaycan Milli Şurasının sədr müavini Həsən bəy Ağayev sədrlik edirdi. Şura 24 nəfər lehinə və 2 nəfər isə bitərəf qalmaqla Azərbaycanı müstəqil dövlət olaraq bəyan etdi. Osmanlı Türkiyəsi ilk dövlət idi ki, artıq iyunun 4-də Azərbaycanın müstəqilliyini tanıdı [Quseynova İrada. İstoriya narodov Kavkaza. Baku, 2017, 1232 s. /s.714]. Ölkəmizin müqstəqilliyinin bəyan olunduğu 28 may tarixli iclasda Azərbaycanın İSTİQLAL BƏYANNAMƏSİ qəbul olundu.

İstiqlal Bəyannaməsi bütün türk-müsəlman dünyasında, ümumiyyətlə, bütün Şərqdə, ilk dəfə olaraq, Azərbaycanda ən demokratik respublika idarə üsulunun - parlamentli respublikanın yaradılacağından xəbər verirdi. Azərbaycan Milli Şurasının İstiqlal Bəyannaməsində deyilirdi:

1. Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyətə malik olduğu kimi, Cənub-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan da tam hüquqlu müstəqil bir dövlətdir.

2. Müstəqil Azərbaycan dövlətinin idarə forması Xalq Cümhuriyyətidir.

3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərlə, xüsusilə, qonşu olduğu millətlər və dövlətlərlə mehriban münasibətlər yaratmaq əzmindədir.

4. Azərbaycan Xalq Cümhuriyyəti milliyyətindən, məzhəbindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq, öz sərhədləri daxilində yaşayan bütün vətəndaşlarına siyasi hüquqlar və vətəndaşlıq hüququ təmin edir.

5. Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisi daxilində yaşayan bütün millətlərin sərbəst inkişafı üçün geniş imkanlar yaradır.

6. Müəssislər Məclisi toplanıncaya qədər Azərbaycanın başında xalqın seçdiyi Milli Şura və Milli Şura qarşısında məsuliyyət daşıyan Müvəqqəti Hökumət durur.

Azərbaycan Milli Şurası adıçəkilən ilk iclasında, eyni zamanda, bitərəf Fətəli xan Xoyskinin başçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin ilk Müvəqqəti Hökumətinin tərkibini də təsdiq etdi. İlk Müvəqqəti Hökumət bu tərkibdə idi:

Fətəli xan Xoyski - Nazirlər Şurasının sədri və daxili işlər naziri

Xosrov Paşa bəy Sultanov - hərbi nazir

Məmməd Həsən Hacınski - xarici işlər naziri

Nəsib bəy Usubbəyov - maliyyə naziri və xalq maarif naziri

Xəlil bəy Xasməmmədov - ədliyyə naziri

Məmməd Yusif Cəfərov - ticarət və sənaye naziri

Əkbər Ağa Şeyxülislamov - əkinçilik naziri və əmək naziri

Xudadat bəy Məlik-Aslanov - yollar naziri və poçt-teleqraf naziri

Camo bəy Hacınski - dövlət nəzarətçisi.

Beləliklə, Birinci Dünya müharibəsinin başa çatması ərəfəsində və Romanovlar mütləqiyyətinin devrilməsi ilə əlaqədar olaraq formalaşmış çox mürəkkəb bir tarixi şəraitdə Azərbaycanın şimal torpaqlarında dövlətçilik ənənələrimiz yenidən, özü də bu dəfə parlamentli respublika şəklində dirçəldi.

***(Ardı var)***

**İradə Hüseynova,**
*Bakı Dövlət Universitetinin Qafqaz xalqları tarixi kafedrasının müdiri, tarix elmləri doktoru, professor,YAP Siyasi Şurasının üzvü, Azərbaycan Respublikasının Əməkdar müəllimi, Elm, təhsil və innovasiyaların inkişafında xidmətlərinə görə Beynəlxalq "Sokrat" mükafatı laureatı*

# OPEC+ formatında əməkdaşlıq Azərbaycan üçün məqsədəuyğundur



Neft İxrac Edən Ölkələr Təşkilatına üzv və qeyri-üzv dövlətlərin ikinci görüşünün nəticəsi olaraq, neft hasilatının azaldılmasına dair sazişin müddəti 2018-ci ilin birinci rübünün sonunda başa çatmalı olsa da, ötən ilin dekabrda keçirilmiş üçüncü görüşdə sazişin ilin sonuna kimi davam etdirilməsinə qərar verildi. Hazırda iştirakçı ölkələr öz öhdəliyini icra edir, görüşlər keçirilir, OPEC+ formatında əməkdaşlıq mexanizminin daha da inkişaf etdirilməsi və uzunmüddətli olması ətrafında müzakirələr aparılır. Şübhəsiz ki, bütün bunlar OPEC çərçivəsində əməkdaşlığın gözləntiləri doğrultmasının nəticəsi kimi dəyərləndirilməlidir. Bu əməkdaşlıq təkcə OPEC-in nüfuzu, maraqlarının qorunması deyil, həm də neft hasil edən və ixrac edən ölkələrlə bərabər, eyni zamanda, istehlakçılar üçün də vacibliyini nümayiş etdirir. Bu əməkdaşlıq, OPEC ölkələri və təşkilata daxil olmayan ölkələrin mövqeyinin yekdilliyi, maraqların uzlaşması və dialoq vasitəsilə qlobal problemin həllinə çalışmaları, böhranlı vəziyyətə yanaşma və təsirləri baxımından mütərəqqi bir prosesdir, bu əməkdaşlığın böyük əhəmiyyət kəsb etdiyini inkar etmək olmaz.

Məlumdur ki, dünya bazarında neftin qiymətinin sabitləşdirilməsi məqsədilə qəbul edilmiş qərarın işləkliyi, məhz "Əməkdaşlıq Bəyannaməsi"nə qoşulan ölkələr tərəfindən təmin edilir və üzv olan ölkələrin hər biri öz öhdəliyinə sadiqliyini qoruyub-saxlayır. Bütün bunlar, onu deməyə əsas verir ki, 2016-cı ilin sonlarından bu günə kimi OPEC-in çətiri altında davam edən əməkdaşlıq təqdirəlayiqdir.

Qeyd etmək yerinə düşər ki, yeni texnologiyaların tətbiqi, enerji sektorunda yeni çağırışların nəzərə alınması, geosiyasi faktorların təsiri ilə əlaqədar yarana biləcək risklərin gələcəkdə dünya enerji balansında neftin yanacaq növü kimi mövqeyinin hansı dərəcədə saxlanması istiqamətində neft ölkələri üçün bu əməkdaşlıq həm də müzakirə və həll platforması ola biləcəyi inkar edilə bilməz. Bildiyimiz kimi, Neft İxrac Edən Ölkələr Təşkilatının baş katibi Məhəmməd Sanusi Barkindo Azərbaycan Prezidentinin dəvəti ilə 17-19 mart 2018-ci il tarixlərində ölkəmizdə səfərdə olub və səfər çərçivəsində bir sıra görüşlər keçirilib, eyni zamanda, "Səngəçal" terminalına və Bibiheybətdəki ilk neft quyusuna baş çəkilib. Təşkilatın baş katibinin Azərbaycana marağını inkar etmək mümkün deyil və bu maraq müxtəlif səbəblərlə bağlıdır. Məlumdur ki, ilk dəfə Azərbaycanda neftin sənaye üsulu ilə hasilatı XIX əsrin ortalarına təsadüf edir. Azərbaycan karbohidrogenlərin həm kəşfiyyatı, həm hasilatı, həm də emalı sahələrində bir sıra mütərəqqi yeniliklərin ilk dəfə tətbiq olunması, eyni zamanda, enerji təhlükəsizliyindəki rolu və dünyanın enerji xəritəsini dəyişən layihələri ilə diqqət mərkəzində olan ölkələrdəndir. Xüsusilə, qeyd etmək lazımdır ki, Azərbaycana olan maraq və diqqət, elə bu səbəbdəndir ki, ölkəmiz qlobal layihələrə üstünlük verir. OPEC tərəfindən Azərbaycana bu maraq, sözsüz ki, ölkəmizin uğurla həyata keçirdiyi transmilli layihələrlə yanaşı, eləcə də, son illər neftin qiymətinin sabitləşdirilməsi istiqamətində təşkilat çərçivəsində irəli sürülən təşəbbüslərə qoşulması və həyata keçirilən tədbirlərdə yaxından iştirakı ilə bağlıdır.

Göründüyü kimi, Azərbaycanın bu prosesdə rolu, həyata keçirilən tədbirlərdə yaxından iştirakı OPEC tərəfindən yüksək qiymətləndirilir. Məhz bu baxımdan, 2018-ci ildən sonrakı müddətdə əməkdaşlığın davam etdirilməsində maraqlar, xüsusilə, ifadə olunur və burada Azərbaycanın da yer alması arzu ediləndir. Azərbaycanın OPEC-ə qoşulması və OPEC+ formatında əməkdaşlığın davam etdirilməsi hazırkı mərhələdə ölkəmiz üçün daha məqsədəuyğundur. 2018-ci ildə ölkədə təxminən 38 milyon ton neft hasil ediləcəyi proqnozlaşdırılır ki, onun da 28 milyon tonu "Azəri-Çıraq-Günəşli" yataqlar kompleksinin, 7,6 milyon tonu isə SOCAR-ın payına düşür və hətta əlavə olaraq, "Şahdəniz"dən 2,4 milyon ton kondensatın hasil ediləcəyi də proqnozlaşdırılır. Bütün bunların fonunda, eləcə də, təxminən 32 milyon ton neftin ixrac edilməsi nəzərdə tutulur.

Qaz hasilatına gəldikdə isə, 2018-ci ildə ölkəmizin təxminən 30 milyard kubmetr qaz hasil ediləcəyi proqnozlaşdırılır ki, bunun da 6,4 milyard kubmetri SOCAR-dan, 12,5 milyard kubmetri AÇG-dən, 11,1 milyard kubmetri isə "Şahdəniz"dən gözləniləndir. Xüsusilə, qeyd etmək lazımdır ki, ümumi hasilatdan qaz ixracının 9,7 milyard kubmetrdən bir qədər artıq olacağı da proqnozlaşdırılır. "Cənub Qaz Dəhlizi" elə bir layihədir ki, təkcə iştirakçı ölkələrin deyil, gələcəkdə qoşulacaq, yaxud qoşulmaq istəyən hər bir ölkənin maraqlarını təmin edəcək böyük imkanlara malikdir. Həmçinin, bu imkanlar, onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə ərsəyə gələn "Cənub Qaz Dəhlizi"nin yeni ixracatçılar, tranzit və istehlakçı ölkələr cəlb etməklə, Balkanlar da daxil olmaqla, Şərqi və Mərkəzi Avropaya qədər genişlənmə perspektivi var və adından göründüyü kimi, bu, bir dəhlizdir. "Şahdəniz Mərhələ-2", "Cənubi Qafqaz Boru Kəməri" və TANAP layihələri yekunlaşmaq üzrədir və bütün bu işlər də onu göstərir ki, Azərbaycan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirib. Türkmənistan və Rumıniya təmsilçilərinin "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının 4-cü iclasında iştirakı və çıxışları da təsdiqləyir ki, layihəyə maraq getdikcə daha da artır.

**İnam HACIYEV**

# Siyasi şərhçi: "Paşinyanın radikal çıxışları daxili ictimai rəyə hesablanıb"



***"Tipik erməni "dığa"sı Paşinyanın Qarabağ mövzusunda radikal çıxışları daxili ictimai rəyə hesablanıb. O, Qarabağ klanına qarşı etiraz dalğası üzərində baş nazir postuna sahiblənib. Amma bu klan Ermənistanda hələ də söz sahibidir, ciddi maliyyə resurslarına malikdir".***

SİA-nın verdiyi məlumata görə, bunu siyasi şərhçi Elçin Mirzəbəyli deyib. Onun sözlərinə görə, klanı parçalamadan, Qarabağ ermənilərinin dəstəyini almadan, ən azı neytrallığını təmin etmədən Paşinyan və qrupu üçün qısamüddətli hakimiyyət dönəmində və seçkilərdə nəticə əldə etmək mümkün olmayacaq: "Bu baxımdan da Qarabağ məsələsində özünü Sarkisyandan daha radikal göstərir. Dağlıq Qarabağın ayrıca subyekt kimi danışıqlar prosesinə cəlb edilməsi barədə bəyanatların da əsasında bu amil dayanır. Çünki Qarabağ klanının təmsilçiləri - Köçəryan və Sarkisyan bunu bacarmayıblar. Paşinyan da onların bacarmadıqları müstəvidən çıxış edərək dividend qazanmağa cəhd göstərir. Ola bilsin ki, kimlərsə məsələyə məhz bu kontekstdən yanaşa bilmirlər. Bu normal və anlaşılandır. Amma Paşinyanın xalqımıza və dövlətimizə qarşı səsləndirdiyi aşağılayıcı fikirlərdən yararlanaraq kampaniya aparanları, bu erməni "dığa"sının sərsəm açıqlamalarını tirajlayanları, təbliğ edənləri anlamaq mümkün deyil.

Əgər siz özünüzü Azərbaycan xalqının nümayəndəsi sayırsınızsa və yenə də Paşinyanın aşağılayıcı fikirlərinin təbliğinə davam edirsinizsə, o zaman belə anlaşılır ki, aşağılanmaqdan, təhqir olunmaqdan xoşunuz gəlir. Bunun adı isə mazaxizmdir. Yox əgər özünüzü Azərbaycan xalqının təmsilçisi hesab etmirsinizsə, o zaman erməni olduğunuzu etiraf edin, biz də Azərbaycanın işğal altında olmayan ərazilərində yaşayan ermənilərlə bağlı rəqəmlərdə dəqiqləşdirmə aparaq".

# Sarkisyanın və Paşinyanın gizli danışıqları üzə çıxıb

***Ermənistanın eks-prezidenti və baş naziri Serj Sarkisyan istefa barədə qərar verməzdən əvvəl Moskva ilə intensiv təmaslarda olub, bir sıra yüksək vəzifəli şəxslərlə danışıqlar aparıb. Bu barədə Virtualaz.orgməlumat yayıb. "Serj Sarkisyan istefasına qədər son 24 saat ərzində Moskvadan rəsmi şəxslərlə telefon söhbətləri aparıb. Bu söhbətlərin təfərrüatları məlum deyil"-diplomatik mənbələr bildirib.***

Bununla belə qeyd olunub ki, həmin təmaslar zamanı Moskva Sərkisyanın nümayişçilərə qarşı gücdən istifadə planlarını dəstəkləməyib. Həmin ərəfədə Nikol Paşinyan da Moskvadan zənglər alıb. "Ona çatdırıblar ki, etirazlar zamanı erməni simvolikalarından başqa hər hansı simvolikalar istifadə edilməsin. Bu, Ermənistandakı etirazların Gürcüstan və Ukraynadakı etirazlardan fərqli olduğunu göstərmək üçün lazım idi"-agentlik yazır.



Məqalədə deyilir ki, Kremldən zənglər inqilabın nəticəsi baxımından həlledici olmayıb, bu zənglər ancaq nümayişçilərin təzyiqlərinə görə edilib. Paşinyana yaxın biznesmen və etirazların liderlərindən biri Armen Qriqoryan deyiblər ki, nümayişlər zamanı Nikol Paşinyan özü də Rusiya səfirliyi ilə və Moskvadan XİN-in rəsmi nümayəndəsi ilə təmas qurub. "Biz onlarla işləyirdik. Paşinyan onları əmin etdi ki, baş verənlər Rusiyanın maraqlarına təhlükə yaratmayacaq"-Qriqoryan deyib. İstefadan əvvəl Serj Sarkisyan vəzifəli şəxslərlə və yaxın tərəfdaşları ilə intensiv müzakirələr də aparıb. Vitse-spiker Eduard Şarmazanov deyib ki, iki variant müzakirə olunurdu-fövqəladə vəziyyət tətbiq etmək və Sarkisyanın istefası. "Qərara alındı ki, fövqəladə vəziyyət problemi həll etməyəcək, təxirə salacaq. Ona görə də istefa variantı seçildi"-o deyib.

# Azərbaycan iqtisadiyyatı uğurlu inkişaf mərhələsindədir

***Azərbaycanda aparılan uğurlu iqtisadi islahatlar kompleks inkişafımıza gətirib çıxarıb və bu da, öz növbəsində, iqtisadi sahədə həyata keçirilən tədbirlərin məqsədyönlülüyündən xəbər verir. Ümumi daxili məhsulun (ÜDM) artım tempi, büdcə gəlirlərinin ildən-ilə əhəmiyyətli dərəcədə artması iqtisadi sektorda islahatların genişləndirilməsinə və sosial-mədəni modernləşməyə imkan yaradıb. Respublikamızın iqtisadi siyasətinin sosialyönümlü səciyyə daşıması isə insan amilinə və insan hüquqları sisteminə yüksək həssaslıq nümunəsidir.***



### Bütün sahələr üzrə davamlı islahatların aparılması ölkəmizin uğurlarını təmin edir

Dünyada neftin qiymətinin siyasi konyunktura əsasında müəyyənləşdiyi son siyasi-iqtisadi reallıqlar, bir daha təsdiqlədi ki, Azərbaycanın uğuru, yeni çağırışlara adekvat olaraq, bütün sahələrdə davamlı islahatların aparılması ilə bağlıdır. Dövlət quruculuğu prosesində innovativ yeniliklərə istinad edən dövlətlər iqtisadi inkişaf strategiyasını elmi əsaslar üzərində qurmaqla, milli tərəqqiyə nail olur, iqtisadi, sosial və intellektual inkişaf müstəvisində rəqabətə davam gətirirlər. Ötən müddətdə imzalanmış fərman və sərəncamlar da göstərir ki, dövlət başçısı hökumətin həyata keçirəcəyi iqtisadi islahatların innovasiyayönümlü olmasını, dərin elmi əsaslara, proqnozlara, habelə, mütərəqqi dünya təcrübəsinə əsaslanmasını vacib sayır.

Qlobal maliyyə böhranının yeni fazaya keçməsinə baxmayaraq, ölkəmizdə qeyri-neft sektorunda da artım müşahidə olunur, sənaye, kənd təsərrüfatı sürətlə inkişaf edir və ixracın şaxələndirilməsi istiqamətində də aparılan uğurlu islahatlar müsbət nəticələr verir. Sahibkarlığın inkişafına diqqət göstərilməsi, iş adamlarının beynəlxalq bazarlara çıxması üçün əlverişli imkanların yaradılması aparılan siyasətin əsasını təşkil edir. Qlobal böhranın davam etdiyi bir şəraitdə daxili istehsalın təşviq edilməsi, sahibkarlara kreditlərin verilməsi və özəl sektorun maraqlarının müdafiə edilməsi qarşıya qoyulan bütün məsələlərin həllini reallaşdırır.

Azərbaycanda həyata keçirilən iqtisadi siyasət, makroiqtisadi və maliyyə sabitliyinin qorunması, dayanıqlı iqtisadi artımın təmin edilməsi və iqtisadiyyatın modernləşməsinə dəstək verən siyasətin dərinləşdirilməsi, qeyri-neft sektorunun sürətlə inkişaf etdirilməsi əldə edilən müsbət nəticələrdir. Qeyri-neft iqtisadiyyatında, qeyri-neft sənayesində, kənd təsərrüfatında, xarici ticarət dövriyyəsində, xarici ticarətin müsbət saldosunda, valyuta ehtiyatlarında, mütəmadi olaraq, dinamik artım müşahidə olunur.

### Azərbaycanda aparılan islahatlar yüksək qiymətləndirir və ölkəmiz MDB məkanında liderliyini qoruyur

Ölkəmizin beynəlxalq qiymətləndirmə reytinqlərində əldə etdiyi yüksək iqtisadi mövqeləri də qorunub-saxlanılır. "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycanın iki pillə irəliləməsi, bir daha göstərdi ki, ölkəmizdə düzgün istiqamətdə iqtisadi islahatlar aparılır və bu istiqamətdə görülən davamlı işlər qarşıda daha böyük uğurların əldə olunmasına zəmin yaradır. Son qiymətləndirməyə əsasən, Azərbaycan, MDB məkanında yenə də liderliyini qoruyur və 20 il əvvəl Azərbaycanla eyni səviyyədə qərarlaşan postsovet ölkələri indi iqtisadi inkişaf səviyyəsinə görə respublikamızla rəqabət apara bilmirlər. Son illərdə ölkəmizin beynəlxalq arenada iqtisadi və siyasi mövqeyinin daha da möhkəmlənməsi, dünyanın nüfuzlu təşkilatlarının Azərbaycanın mövqeyini dəstəkləyən qərarlar qəbul etmələri ölkəmizin seçdiyi yolun düzgünlüyünü bir daha təsdiqləyir və indi beynəlxalq reytinq agentlikləri Azərbaycanda aparılan islahatları yüksək qiymətləndirirlər. Davos Dünya İqtisadi Forumunda deyildiyi kimi, dünya miqyasında 35-ci yeri tutmaq, MDB məkanında birinci olmaq, inklüziv inkişaf indeksinə görə inkişafda olan ölkələr arasında üçüncü yerdə qərarlaşmaq çox böyük nəticədir.

Azərbaycanın iqtisadi inkişaf dinamikası əvvəlcə resurslara əsaslanırdısa, hazırda iqtisadi şaxələndirmənin nəticəsi olaraq, qeyri-neft sektoru üstün artım tempinə malikdir. Azərbaycanın iqtisadi dayanıqlılığının təmin olunmasında, sözsüz ki, ölkədə yaradılmış siyasi sabitliklə yanaşı, iqtisadiyyatın şaxələndirilməsi və bu siyasətin prioritet istiqamətlərindən olan regionların sosial-iqtisadi inkişafına dair proqramların müstəsna əhəmiyyəti vardır.

Daha bir nüfuzlu reytinq agentliyi ölkəmizlə bağlı qiymətləndirmə verib. Daha dəqiq desək, "Standard&Poor's" ("S&P") beynəlxalq reytinq agentliyi 2019-2020-ci illərdə Azərbaycanda illik ümumi daxili məhsul (ÜDM) istehsalının artımının 3,5 faiz səviyyəsində olacağını proqnozlaşdırıb. "S&P"-nin mütəxəssislərinin rəyinə əsasən, 2018-ci ildə də Azərbaycan iqtisadiyyatında artım olacaq. Mütəxəssislərin rəyinə görə ÜDM 2018-ci ildə 2 faiz (nominal həcm 44 milyard dollar), 2019-cu ildə 3,5 faiz (47 milyard dollar), 2020-ci ildə 3,5 faiz (48 milyard dollar) artacaq. Bütün bu sadlanan reytinqlər Azərbaycan Respublikasının investisiya baxımından cəlbedici ölkələr sırasında aparıcı ölkələrdən biri olduğunu növbəti dəfə nümayiş etdirir.

### Sosial sahəyə diqqətin artırılması ölkə vətəndaşlarının rifah halının yüksəldilməsinə xidmət edir

Son illər Azərbaycanın büdcə zərfində sosialyönümlü xərclərin prioritetliyi bu sahəyə dövlətin diqqətini bir daha təsdiq edir və bu siyasətin real nəticələri insanların gündəlik həyatında öz əksini tapır. Sosial sahəyə diqqətin ildən-ilə artırılması ölkə vətəndaşlarının rifah halının yüksəlməsi ilə nəticələnir və ictimaiyyət bunun şahididir. Sosialyönümlü siyasətin məqsədi sosial bərabərsizliyi tarazlaşdırmaq, kəskin təbəqələşməyə yol verməmək, cəmiyyətin bütün üzvlərini layiqli həyat səviyyəsi ilə təmin etmək üçün fərdin ictimai statusunu yüksəltməkdir. Yeni körpülərin, yol ötürücülərinin, piyada keçidlərinin istifadəyə verilməsi, respublika əhəmiyyətli yollarda əsaslı yenidənqurma işlərinin aparılması, regionlarda yeni təhsil, səhiyyə, mədəniyyət, Olimpiya idman komplekslərinin tikintisi görülən məqsədyönlü tədbirlərdəndir və bunlar Azərbaycan vətəndaşlarının firavan, rahat yaşamasına xidmət edən qlobal investisiya layihələridir.

Ölkə rəhbəri tərəfindən investisiyaların təşviqi və qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı qəbul edilən qərarlar sahibkarlığın daha da inkişafına və xarici investisiyaların cəlb edilməsinə, qeyri-neft ixracının artmasına da səbəb olacağına heç şübhə ola bilməz. Ölkə iqtisadiyyatının şaxələndirilməsinin təmin olunması məqsədilə aparılan geniş infrastruktur quruculuğu yerli istehsalın inkişafı üçün münbit şərait yaradıb. Hazırkı dövrdə ölkəyə valyuta gətirən ixracyönümlü yerli istehsalın genişlənməsinin sürətləndirilməsi məqsədilə dövlət tərəfindən konkret layihələrə yönəldilən infrastruktur dəstəyi bəhrəsini verməkdədir və bu da öz növbəsində, yerli istehsalın daha sürətli artımına, dövlət investisiyalarının məqsədyönlü və səmərəli istifadəsinə və əhalinin məşğulluğuna da, öz töhfəsini verəcək.

### Azərbaycan geosiyasi arealda sülh, tərəqqi, sabitlik və iqtisadi əməkdaşlıq mərkəzi kimi tanınır

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş inkişaf strategiyasının Prezident İlham Əliyevin yeni mərhələdə uğurla davam etdirməsi müstəqil Azərbaycanı regionun ən güclü, ən qüdrətli dövlətlərindən birinə çevirib və bütün bunların nəticəsi olaraq, Azərbaycan hazırda daha geniş geosiyasi arealda sülh, tərəqqi və sabitlik və iqtisadi əməkdaşlıq mərkəzi kimi tanınır. Azərbaycan iqtisadiyyatında baş vermiş bu fenomenal uğurların təməlində aparılan siyasi və iqtisadi kursun layiqincə davam etdirilməsi dayanır və sosial-iqtisadi inkişaf quruculuğunun ən mühüm cəhəti də, ölkə vətəndaşının sosial rifah halının yaxşılaşdırılmasının nəzərə alınmasıdır. Buna imkan yaradan isə, sözsüz ki, hər şeydən öncə, Azərbaycan dövlətinin iqtisadi və maliyyə potensialıdır. Əbəs deyildir ki, son 14 ildə məqsədyönlü fəaliyyətin ən uğurlu nəticələrindən biri, məhz milli iqtisadiyyatın 3 dəfədən çox genişlənməsi, strateji valyuta ehtiyatlarının 23 dəfə artaraq, 42 milyard dollara çatması ilə bağlıdır.

Ən qısa şəkildə ifadə etmiş olsaq, ölkəmizin iqtisadi qüdrəti 2004-2018-ci illər ərzində 3,2 dəfədən çox artıb və əməli fəaliyyət baxımından ölkəmizin yerləşdiyi region üçün misli görünməmiş bu nəticə Azərbaycan Hökümətinin məqsədyönlü və fədakar əməyinin nəticəsi kimi qiymətləndirilməlidir. Bu uğurların davamı olaraq, müstəqilliyimizin 100-cü ildönümünü qeyd etdiyimiz 2018-ci ildə Azərbaycan iqtisadiyyatı öz inkişafında yeni tərəqqi dövrünə qədəm qoyub və Azərbaycanın iqtisadi qüdrətinin daha da artması isə, öz növbəsində, ölkənin potensialının gücləndirilməsi və sosial müdafiəsinin təmin edilməsi üçün ən etibarlı zəmin yaradılması deməkdir.

***İnam İMRANOĞLU***

# Laçında Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi ilə bağlı tədbir keçirilib



YAP Laçın rayon təşkilatı Laçın rayon icra hakimiyyəti ilə birgə laçınlı məcburi köçkünlərin müvəqqəti məskunlaşdıqları Ağcabədi rayonunun Taxta Körpü qəsəbəsində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi ilə bağlı tədbir keçirib. Əvvəlcə tədbir iştirakçıları tərəfindən Laçın rayon icra hakimiyyəti binasının qarşısında Ulu Öndər Heydər Əliyevin əziz xatirəsinə ucaldılmış büstü ziyarət olunaraq, önünə gül dəstələri düzülüb. Sonra tədbir iştirakçıları qəsəbə ərazisindəki Heydər Əliyev adına Parkda həmişəyaşıl ağaclar əkiblər.



Laçın rayon icra hakimiyyətinin iclas zalında davam etdirilən tədbir Dövlət Himninin səsləndirilməsi ilə açıq elan olunub. Tədbirdə çıxış edən Laçın rayon icra hakimiyyətinin başçısı Aqil Nəzərli Ümummilli Liderin keçdiyi şərəfli həyat yolundan və çoxşaxəli fəaliyyətindən danışaraq, məhz dahi Şəxsiyyətin qətiyyəti, cəsarəti və uzaqgörənliyi nəticəsində Azərbaycanda ictimai-siyasi sabitliyə nail olunduğunu, dövlətçiliyimizin məhv olmaq təhlükəsindən xilas edildiyini, Ulu Öndərin hakimiyyəti dövründə respublikamızın ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisində misilsiz nailiyyətlər qazanıldığını bildirib.

Tədbirdə Laçın rayon icra hakimiyyəti başçısının birinci müavini Tofiq Mirzəyev Ümummilli Lider Heydər Əliyevin zəngin və şərəfli ömür yoluna dair məruzə ilə çıxış edib. Məruzə ətrafında çıxışlar dinlənilib. Çıxış edənlər Ümummilli Lider Heydər Əliyev strategiyasının müstəqil Azərbaycanın inkişaf yolu olduğunu, bu siyasətin ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildiriblər.

Ulu Öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə Laçın rayon icra hakimiyyətinin tədbirlər planına uyğun olaraq, məktəblilər və gənclər arasında keçirilən futbol və voleybol yarışlarının qaliblərinə kubok, Fəxri Fərman və qiymətli hədiyyələr təqdim olunub.

Sonda Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarx təqdim olunub.

**ZÜMRÜD**

# ADNSU-da Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş silsilə tədbirlər keçirilir



Azərbaycan Prezidenti İlham Əliyevin 16 may 2017-ci il tarixində imzaladığı Sərəncama əsasən, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi ölkəmizin hər yerində geniş şəkildə qeyd olunur. Müxtəlif təşkilat və idarələrdə, eləcə də, ali təhsil müəssisələrində tədbirlər təşkil edilir. Azərbaycan Dövlət Neft və Sənaye Universitetində də Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş silsilə tədbirlər keçirilir.

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ 100 1918 2018

Növbəti tədbir universitetin Qaz, Neft və Mədən fakültəsinin birinci kursunda təşkil olunmuşdu. İctimai fənlər kafedrasının müdiri Camal Mustafayev bildirdi ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş tədbirlərin keçirilməsi bu kafedraya həvalə olunub: "Bu günə qədər Azərbaycan Dövlət Neft və Sənaye Universitetində Tədbirlər Planına əsasən, dəyirmi masalar, açıq dərslər, müzakirələr və digər tədbirlər keçirilib. Bugünkü tədbirimiz də həmin tədbirlərin davamıdır. Bu yaxınlarda isə universitetdə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş beynəlxalq konfrans keçiriləcək".

İctimai fənlər kafedrasının baş müəllimi Sevda Yusifova dərs zamanı tələbələrə Şərqdə qurulan ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyətinin gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərdiyini bildirərək, bir çox sahələrdə həyata keçirdiyi islahatlardan danışdı. Qeyd etdi ki, Azərbaycan tarixində mühüm bir mərhələnin əsasını qoyan Azərbaycan Xalq Cümhuriyyəti üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirdi, Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi və dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi.

Tələbələrdən Kamran Vəliyev və başqaları Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixindən və ilk dəfə olaraq, Azərbaycan adlı müstəqil dövlətin əsasının qoyulduğunu bildirdilər.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Nar" mətbuat nümayəndələri ilə ənənəvi görüşünü keçirdi

nar
Gəlin birlikdə böyüyək

"Nar" media nümayəndələri ilə ənənəvi görüşünü keçirdi. Çoxsaylı jurnalistlərin iştirak etdiyi görüşdə mobil operatorun son nailiyyətləri, məhsul və xidmətləri, genişləndirilmiş şəbəkəsi və korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində görülmüş işlər barədə geniş məlumat verildi. Görüş zamanı, mobil internetdən istifadəçilərin sayına görə "Nar"-ın ən yüksək yüksək göstəriciyə nail olduğu, mobil internetdən istifadənin həcmində Bakı və Abşeron yarımadasında 88%, bölgələrdə isə 28% artımın müşahidə edildiyi, bir-birindən sərfəli və əlverişli kampaniya və təkliflərin irəli sürüldüyü mətbuat nümayəndələrinin diqqətinə çatdırıldı.

Görüşdə iştirak edən "Azerfon" şirkətinin baş icraçı direktoru Qunnar Panke jurnalistləri salamlayaraq "Nar"-ın ən son uğur və nailiyyətləri barədə öz fikirlərini bölüşdü:

"Dinamik inkişaf sayəsində əldə etdiyimiz nailiyyətlər hər birimizi fərəhləndirir. Bu nəticələr mobil rabitə şəbəkəsinin əhəmiyyətli dərəcədə genişləndirilməsi, eləcə də təqdim etdiyimiz yenilikçi xidmətlər və sərfəli qiymətlər sayəsində mümkün olmuşdur. "Nar" bundan sonra da yüksək inkişaf tempi ilə qarşısına qoyduğu hədəflərə nail olmağa çalışacaq", - deyə cənab Panke qeyd etdi.

Şəbəkənin daha da gücləndirilməsi istiqamətində atılmış addımlardan bəhs edərkən, 6500-dən çox baza stansiyası ilə müştərilərə yüksəkkeyfiyyətli xidmət göstərildiyi, bölgələrin 4G (LTE) şəbəkəsi ilə təmin edildiyi, təkcə 2018-ci ilin ilk aylarında paytaxt və ölkənin 18 bölgəsində 147 yeni LTE baza stansiyasının quraşdırıldığı, metro stansiyalarında LTE xidmətinin təmin edildiyi, "Formula Azərbaycan qran-prisi" zamanı yarışların keçirildiyi ərazilərdə daha da gücləndirilmiş şəbəkənin təmin edildiyi vurğulandı.

Qeyd edildi ki, 2017-ci ildə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" tərəfindən keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən, "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Abunəçilərin tələb və istəklərini hər zaman nəzərə alan "Nar" müxtəlif məhsul və təkliflər irəli sürüb. Mobil operatorun təqdim etdiyi "Full" paketləri Azərbaycanın mobil rabitə bazarında ilk dəfə olaraq "yanmayan" bonuslar təcrübəsinə əsaslanır. "Qutu" təklifi isə özündə ev üçün fiber-optik internet, rəqəmsal TV, mobil rabitə üçün ölkədaxili bütün istiqamətlərə danışıq dəqiqələri təqdim edən və mobil internet xidmətlərini birləşdirən unikal təklifdir. Xüsusi olaraq bölgələr üçün hazırlanmış "Yerlim" tarifindən yararlanmış abunəçilərin sayında 62% artım müşahidə edilib. Bundan başqa, artıq "Nar"-ın bütün "Turbo" internet paketlərində "WhatsApp" pulsuzdur.

Mobil operator uğurlu biznes fəaliyyəti ilə yanaşı, sosial məsuliyyət və ictimai fəaliyyət məsələsinə də xüsusi diqqətlə yanaşır. "Nar" özünün çoxşaxəli KSM strategiyası çərçivəsində Azərbaycan Texniki Universitetində xüsusi avadanlıqlarla təchiz edilmiş GSM laboratoriyasını tələbələrin istifadəsinə açmış, "Microsoft Imagine Cup" müsabiqəsini dəstəkləməklə gənc istedadların üzə çıxarılmasına töhfə vermiş, gənclərin sevimli "Brain Ring" intellektual müsabiqəsinə öz dəstəyini davam etdirmiş və müxtəlif sosial aksiyalara imza atmışdır.

Bu il "Nar" yeni sosial layihə həyata keçirmiş, Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümü münasibətilə Novruz bayramında cəbhə bölgəsində yerləşən hərbi hissələrdən birində xidmətdə olan əsgərlərimizi bayram sovqatı ilə təbrik etmişdir. Azərbaycan Respublikası Müdafiə nazirliyi ilə birgə təşkil edilmiş aksiyada əsgər valideynlərinin də iştirakı təmin edilmiş və bu sürpriz vətən keşikçilərində əsl bayram əhval-ruhiyyəsi yaratmışdır.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilmişdir. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilmişdir. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim etmiş və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə vermişdir.

# Əli Kərimli və Cəmil Həsənli "reallığı"



Bəllidir ki, dağıdıcı müxalifət düşərgəsinin "fəalları" sırasında özlərini "lider" hesab edənlər - AXCP sədri Əli Kərimli və "Milli Şura"nın siyasi oyuncağı Cəmil Həsənli "Facebook" səhifələrindən 25 ildir ki, danışdıqları "nağıl"ları təkrarlayaraq, öz aləmlərində hakimiyyətə qarşı çıxdıqlarını bəyan edirlər.

Əslində, dağıdıcı müxalifətin bu cür "addımları" ilk deyil və bu, adi hala çevrilib. Məsələ burasındadır ki, 25 ildir ki, kürsü davası edən Ə.Kərimli, bu illər ərzində, nəinki nəyəsə nail olub, əksinə, olan-qalan nüfuzunu da itirib. Bu baxımdan da, dağıdıcı müxalifəti təmsil edən istənilən şəxsin, hətta bundan sonra baş tutacaq seçkilərdə ağır məğlubiyyətə uğrayacağı məlumdur və bu, onların özlərinə də bəllidir. Ümumiyyətlə, aydın məsələdir, pişiyin ağzı ətə çatmayanda, deyir ki, ət iylənib. Bu gün dağıdıcı müxalifətin "fəaliyyəti" ancaq virtual məkandadır və paradoks da olsa, bu adamları dəstəkləyənlər də saxta profillərdir. Hansı ki, bu saxta profillər, həm də troll funksiyasını yerinə yetirir. Belə "fəaliyyət" ilə dağıdıcılar ancaq özlərini və xarici havadarlarını aldada bilərlər, xalqı yox!

## Kərimlinin başının fırlandığını dəqiq deyə bilməsək də, ürəkləri bulandırma faktları açıq-aydın ortadadır

Reallıqda isə, məlum məsələdir ki, saxta profillər nə mitinqə getmək, nə də digər maraqlarını ifadə etmək iqtidarında deyil. Özlərinin iddialarına inansaq, təkcə Ə.Kərimlinin "Facebook"dakı səhifəsinin iki yüz mindən çox izləyicisi var. Ancaq mitinq keçirmək istəyəndə, bu adam meydana heç 2 min insan da yığa bilmir. Bax, elə dağıdıcı müxalifətin rüsvayçılığı da buradan başlayır...

Siyasətçidən çox bloggerliyi ilə məşhurlaşan Ə.Kərimli hələ 11 aprel seçkisindən öncə, sosial şəbəkədə paylaşdığı çoxsaylı videoçarxları ilə iddia edirdi ki, guya prezident seçkiləri oktyabr ayında keçirilsəydi, bu vaxta qədər ölkədə xeyli mitinq keçirə bilərdi (?!). Ümumiyyətlə, adama deyən lazımdır, axı, nə vaxta qədər "utanmadan oynamaq" olar? AXCP sədri qədər "utanmadan oynayan" insanın oyunbazlıqlarına baxanda, ən azından, baş fırlanardı. Ancaq Ə.Kərimlinin başının fırlandığını dəqiq deyə bilməsək də, ürəkləri bulandırma faktları açıq-aydın ortadadır. Bununla belə, Ə.Kərimli ilə C.Həsənli ölkədə siyasi sabitliyi pozmaqda maraqlıdırlar. Bunu bu günlərdə sosial şəbəkə vasitəsilə insanları hakimiyyətə qarşı müqavimətə çağırmaqla bir daha sübut etmiş oldular. Bu adamlar özlərini ictimaiyyətə müxalifət institutunun təmsilçiləri kimi sırımağa çalışsalar da, əslində, özləri də, bilmədən şəxsi mahiyyətlərini ortaya qoyublar: müxalifətdə olmaq, ölkəyə düşmən kəsilmək deməkdirmi? Söhbət ondan gedir ki, bu, bütövlükdə, dağıdıcı müxalifətin faciəsidir. Bu faciəni isə özləri-özlərinə yaradıblar. Bu gün də siyasi uğursuzluğun və məğlubiyyətlərin kökündə dayanan amil budur...

**RÖVŞƏN**

# Cəbhəçilər Əli Kərimlini sədrlikdən istefa verməyə çağırdılar

Daxili çəkişmələr və bunun fonunda partiyalararası ziddiyyətlər müxalifət düşərgəsində həlli mümkün olmayan problemlər yaratmaqdadır. Xüsusilə də, Müsavat-AXCP qarşıdurması hər iki partiyada ciddi başağrısına çevrilib. Bunun nəticəsində, müxalifətin birgə aksiyalar keçirmək və ümumi müxalifətin birliyinin yaradılması arzuları da nəticəsiz qalır. Mövqe uğrunda savaş da bir-birinə qarşı irəli sürdükləri ittihamlar düşərgədaxili durumun son dərəcə kritik vəziyyət almasına gətirib çıxarıb. Ümumiyyətlə, dağıdıcı müxalifətin son illərdəki fəaliyyətinə nəzər salsaq, demək olar ki, bu məxluqlar dünyada analoqu olmayan simalardırlar. Nədəndir ki, qısa zaman kəsiyində çoxsaylı blok və qurumlar yaradıblar, ideya və təkliflərlə çıxış ediblər. Amma yaradılan qurumların ömrü çox qısa olub, irəli sürülən təkliflər isə elə kağız üzərində qalıb. İddialı müxalifət liderləri bir-birindən qısas almaq üçün fərqli mövqe, yol tutublar. Baş verənlərə əsasən, onu söyləmək olar ki, hazırkı müxalifət formatı dəyişməyəcəyi təqdirdə, bundan sonra da yaradılacaq bloklar adları yalnız kağız üzərində qalan bloklardan fərqlənməyəcək.

## İş birliyində olduğu "dost"ları da Əli Kərimlidən üz döndərirlər

"Milli Şura" deyilən qondarma qurum daxilində son vaxtlar yaşanan ağır proseslər daha acınacaqlı və diqqətçəkəndir. Müsavat funksionerləri "Rüstəm İbrahimbəyovsuz "Milli Şura" deyib, ultimativ tələblər irəli sürdülər. AXCP təmsilçiləri də, uduzmağı həzm edənlərdən olmadıqlarını göstərmək üçün "Rüstəm İbrahimbəyov Müsavata gözdağıdır" deməklə, Müsavatı yerində oturtmağa cəhd göstərdilər. Bu isə, onsuz da kövrək olan daxili vəziyyətin gərginləşməsinə yol açdı. Artıq görünən odur ki, AXP-Müsavat qarşıdurması "Milli Şura" deyilən qurumun parçalanma mərhələsini başa vurub, dağılma dövrünə adlamasına gətirib çıxarıb. Müsavatın "Milli Şura"nı tərk etməsinin ardınca İsgəndər Həmidov, "EL" Hərəkatının aparat rəhbəri Zəfər Quliyev və digərləri istefa verdi. Bəzi "şura" üzvləri isə seçim arasında qalıb və qeyri-müəyyən vəziyyətin yaranması AXCP sədri Ə.Kərimlini kortəbii də olsa, fəallığını artırmağa sövq edib. "Azadlıq" qəzetinin internetlə yayımlanan elektron versiyasında "Milli Şura"dan istefa verənlərin "satqın" və "xəyanətkar" adlandırılan silsilə məqalələrin dərc edilməsi Ə.Kərimlinin siyasi fəaliyyətinin başlıca prinsipini təşkil edir. Daha doğrusu, bu məxluq ondan üz çevirənləri tənqid və təhqir etməsini özünün başlıca amalı hesab edir. Hazırkı mərhələdə "Azadlıq" qəzetdinin elektron versiyasında alternativ AXCP-nin sədri Razi Nurullayevin, Almaniyada mühacir həyatı yaşayan keçmiş cəbhəçi Azər Məmmədovun, Sahib Kərimlinin, "Müasir Müsavat" partiyasının sədri Hafiz Hacıyevin, "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu və digərlərinin şəxsiyyətinin alçaldılması Ə.Kərimlinin düşmənçiliyinin ən yaramaz növü sayıla bilər. Amma Ə.Kərimlinin ittihamları heç də cavabsız qalmayır. Misal kimi R.Nurullayevin konkret faktlarla Ə.Kərimlini ifşa etməsini göstərmək olar. R.Nurullayev bildirib ki, AXCP sədri Əli Kərimli partiyada gənclərə yer verdiyini desə də, əslində, həyatını AXCP-yə həsr edən yaşlı nəsil sıxışdırılır: "Çünki onlar gözlərini açıb reallığı görür və yenilik istəyirlər. Suraxanı şöbəsinin sədrini məcburən uzaqlaşdırdılar və Əli Kərimlinin cangüdənini təyin etdilər. Partiyada hər şey şəxsi maraqlarla idarə olunur. Rəyasət Heyətində 5 saat iclasda oturduq, əksəriyyətini Əli Kərimli danışırdı, bunun 80 faizi isə "facebook"da "like"lərin olmasına və paylaşımlara gedirdi. Böyük bir partiyanın bu qədər xırdalığa getməsi düzgün deyil. Mən partiyada bu cür xırdalıqların əleyhinə olmuşam".

## Hafiz Hacıyev Əli Kərimlini "siyasi fahişə" hesab edir

Araşdırmalara əsasən, demək olar ki, yaxın vaxtlarda AXCP fəaliyyətini dayandıra bilər. Bu baş verməsə, ən azı, Ə.Kərimli sədrlikdən gedəcək. Çünki artıq partiyanın əksər rayon təşkilatları, eləcə də, kollegial orqanların bəzi üzvləri Ə.Kərimlidən AXCP sədrliyindən istefa verməyi tələb edirlər. Düzdür, Ə.Kərimli hər vəchlə sədrlikdə qalmağa çalışır. Ancaq bəzi siyasi ekspertlər onun cəhdlərinin uzun çəkməyəcəyini bildirirlər. "Müasir Müsavat" partiyasının sədri H.Hacıyev Ə.Kərimlinin daim "siyasi fahişəliklə" məşğul olduğunu bildirib və qeyd edib ki, o, kim çox pul verərsə, həmin dairələrin qucaqlarına atılır: "Yeni bu fərdlərə siyasətdə "siyasi fahişə", "siyasi pozğun" deyirlər. Ümumiyyətlə, Əli Kərimliyə kim pul verirsə, onların qucağında oturur, özü də məmnuniyyətlə. Məsələn, Qərb verəndə Qərbin, Şərq verəndə Şərqin, Şimal da verəndə Şimalın qucağında özünü rahatlayır".

Bir sözlə, görünən odur ki, artıq əksər müxalifət partiyaları dağılmaq mərhələsindədirlər. Çıxış yolu isə hələ də meydan təfəkküründən qurtula bilən partiya sədrlərinin istefasındadır. Bu isə, çətin məsələ kimi görünür. Çünki C.Həsənli, Ə.Kərimli, A.Hacılı, İ.Qəmbər və digərləri sədrlik kreslosuna ABŞ və Avropadakı himayədarları ilə yaxın ünsiyyət vasitəsi hesab edirlər. Deməli, müxalifət partiayalarının dağılması qaçılmazdır.

**İ.ƏLİYEV**

# Müxalifət çökür

*Bu günlər bəzi partiyaların buraxılacağı proqnozlaşdırılır*




Qarşıdurmaların hökm sürdüyü müxalifət düşərgəsində yeni gərginliyin və bunun fonunda bəzi partiyaların buraxılacağı proqnozlaşdırılır. Baxmayaraq ki, Müsavat və AXCP yetkililəri xarici ağalarının tapşırığı ilə, müxalifət düşərgəsindəki mövcud vəziyyəti olduğu kimi saxlamağa cəhdlər göstərirlər. Bunun üçün yeni müxalif blokun yaradılması ideyası ilə çıxış edirlər. "Azadlıq Hərəkatçılar Birliyi"nin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirdi ki, ötən əsrin sonlarından müxalifət müxtəlif adlarda saysız-hesabsız bloklar yaradıb. Hər dəfə də istəklərini həyata keçirə bilməyərək, iflasa uğrayıb: "Hesab edirəm ki, müxalifət indiki məqamda siyasi arenada heç bir nüfuza malik deyil və bloklar və birliklər yaratmaqla özünü gündəmdə saxlamağa çalışır. Çünki yenə də nəyəsə nail ola bilməyəcəklərini özləri də yaxşı bilirlər. Yıxılan adam saman çöpündən yapışar. Bunlar da belə addımları ilə yıxıldıqlarını və yapışmağa saman çöpü axtardıqlarını etiraf etmiş olurlar".

"Milli Şura" və digər qurumlar olduğu halda, yeni bir qurumun yaradılmasına ehtiyac varmı və yaradılırsa, bu, nədən xəbər verir" sualına cavab olaraq, T.Novruzov bildirdi ki, nədənsə yapışıb gündəmdə qalmasalar, onlara milyonlar xərcləyən bəzi Qərb dairələri hesab tələb edəcəklər. Hesabat verməyə də nə sözləri var, nə də işləri: "Diligödəklik sindromundan qurtulmaq üçün yeganə yol "hələ varıq, hələ mübarizə aparırıq" fonu yaratmaqdan və Azərbaycanda marağı olan dairələrin sifarişlərini yerinə yetirməyə qadir olduqlarını göstərməkdən ibarətdir. Belə olmasa, gündə bir formal qurum yaradıb özlərini göstərməkdənsə, məğlubiyyətlərinin səbəblərini araşdırıb, nəticə çıxarmağa və siyasi fəaliyyətlərində dəyişiklik etməyə çalışarlar. Siyasi mübarizədə qələbənin mənbəyi xalqdır. Bunlar isə xalqa yox, anti-Azərbaycan qüvvələrə üz tuturlar. Bunun da sonu, həmişə olduğu kimi, yenə iflasdır".

"Müxalifət düşərgəsində bir süstlük və qeyri-müəyyənlik hökm sürür. Demək olarmı ki, ağır böhranlı durumu yaşamalarının başlıca günahkarı, elə partiya sədrlərinin özləridir" sualına cavab olaraq, T.Novruzov bildirdi ki, hər bir qurumda olduğu kimi, siyasi təşkilatın da istiqamətvericisi və yönəldicisi onun rəhbəridir, sədridir. Normal ölkələrdə bir siyasətçi bir quruma bir, ən çoxu iki seçki dönəmində rəhbərlik edir: "Uğur qazanmadığı təqdirdə, rəhbərlikdən istefa verib kənara çəkilir və yerini digər iddiaçılara buraxır. Bizdə isə, baxın, partiya sədri var ki, 25-26 ildir sədrdir, altı prezident seçkisində, beş parlament seçkisində, dörd bələdiyyə seçkisində biabırçı şəkildə məğlubiyyətə uğrayıblar, amma hələ də sədliyi əlindən buraxmır. Nəticədə, partiya üzvləri pərən-pərən düşüb. Belədə, bu partiyaların hansısa siyasi uğur qazanacaqları nağıldı və reallıqla heç bir əlaqəsi yoxdur".

"Necə düşünürsünüz, AXCP və Müsavat partiya sədrlərini yeniləri əvəz edərsə, həmin partiyaların siyasi fəaliyyətlərində müsbətə doğru yeni bir dəyişiklik baş verə bilərmi" sualının cavabında T.Novruzov qeyd etdi ki, əgər Müsavatda olduğu kimi, başqan özünün yaxın adamını saxta yolla sədrliyə gətirib, həmin siyasi xəttin davamına rəvac verəcəksə, onda hansısa müsbət dəyişiklikdən danışmağa dəyməz: "Öncə partiyalarda mövcud olan avtoritarlığa son qoyulmalı, gerçək demokratik mühit yaradılmalıdır. Belə bir mühit yaranarsa, yeni, sağlam və konstruktiv düşüncəli qüvvələr siyasi fəaliyyətlərini həmin partiyalarda həyata keçirmək istəsələr, belədə, yaranan demokratik şəraitdə yeni qüvvələr yeni rəhbər seçə və partiyanın işində müəyyən dönüş yarada bilərlər. Baxın, cəmi bir ay öncə keçirilən seçkidə "boykot"(?) qərarı verən, seçkiləri boykot etmək istəyən partiyalar, biabırçı şəkildə məğlubiyyətə uğradılar, amma hələ heç bir partiyada bu məğlubiyyət müzakirə edilməyib, yanlış siyasi xətt təhlil olunmayıb. Niyə? Çünki məğlubiyyətin səbəbkarları partiya sədrləri, onların yanlış siyasi mövqeyidir və bunu müzakirəyə qoymaq onlara sərf eləmir. Nə qədər ki, belə davam edəcək, bu partiyaların ölkənin siyasi həyatında əhəmiyyətli bir rol oynayacaqlarına inanmaq sadəlövhlük olardı".

**GÜLYANƏ**

# Cənab İlham Əliyev və insan haqlarının müdafiəsi

***Şəxsiyyətin toxunulmazlığı, söz, mətbuat, vicdan azadlığı, bütün vətəndaşların bərabər hüquqlara malik olması, siyasi plüralizm Prezident İlham Əliyev siyasətinin prioritet istiqamətləri kimi Azərbaycanda demokratik cəmiyyəti tamamilə bərqarar etmişdir.***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Prezident İlham Əliyev ilk gündən hüquqi dövlət quruculuğunu öz siyasətinin üstün istiqaməti kimi önə çəkmiş, Azərbaycanda uğurla həyata keçirilən, beynəlxalq təcrübəyə əsaslanan islahatlarının qayəsində də, məhz vətəndaşların konstitusion hüquq və azadlıqlarının maksimum müdafiəsi məsələsi dayandığını sübuta yetirmişdir. Prezident İlham Əliyevin islahatları mahiyyət etibarilə insanpərvərlik, şəxsiyyətə inam və hörmət, vətəndaş taleyinə həssas münasibət, humanizm kimi ümumbəşəri prinsiplərə əsaslanır. Təqdir olunan ən mühüm reallıq isə, ondan ibarətdir ki, bu gün ölkədə cəmiyyət və dövlət həyatının bütün sahələrini əhatə edən islahatların həyata keçirilməsində hakimiyyətin bütün qolları fəal iştirak edir. Bütün bunlar, həmçinin, milli səviyyədə formalaşmış əlverişli ictimai, siyasi, hüquqi və iqtisadi mühit Azərbaycan dövlətinin parlaq gələcəyinə olan inamı daha da artırır.



Prezident İlham Əliyevin siyasətinin insan hüquqlarının etibarlı təminatına zəmin yaratdığı 28 dekabr 2006-cı il tarixli (Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" Sərəncamda da öz əksini tapmışdır. Bu Sərəncam ölkəmizdə insan hüquq və azadlıqlarının təmini istiqamətində daha qətiyyətli və prinsipial addımların atılmasına imkan yaradır.

Sərəncamda Azərbaycan Respublikasının icra hakimiyyəti orqanlarına, məhkəmələrinə və Baş Prokurorluğa normativ-hüquqi aktların tətbiqi zamanı Azərbaycan Respublikasının insan hüquqlarının müdafiəsi sahəsində qanunvericiliyin tələblərinə riayət olunmasına nəzarətin gücləndirilməsi tövsiyə olunur.

Həmçinin, Azərbaycan Respublikasının Milli Məclisinə qanun layihələrinin hazırlanması və qanunların qəbul edilməsi zamanı Azərbaycan Respublikasının Konstitusiyasında, habelə, respublikamızın tərəfdar çıxdığı beynəlxalq sənədlərdə əks etdirilmiş insan hüquq və azadlıqlarının əsas meyar kimi rəhbər tutulması, Azərbaycan Respublikasının normativ-hüquqi aktlarının beynəlxalq hüquqi sənədlərə uyğunluğunun təmin edilməsi məsləhət görülür. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə və Ali Məhkəməsinə tövsiyə edilir ki, insan hüquqlarının müdafiəsini tənzimləyən beynəlxalq sənədlərin müddəalarını məhkəmə təcrübəsində tətbiqini təmin etsinlər.

Sərəncama əsasən, müvafiq icra orqanlarına Milli Fəaliyyət Planlarının həyata keçirilməsinə yerli qeyri-hökumət təşkilatlarını cəlb etmək tapşırığı da verilmişdir. "İndiyə qədər respublikamızda vətəndaşın azad cəmiyyətdə yaşaması, hüquq və azadlıqlarını müdafiə etməsi üçün bütün zəruri addımlar atılıb və bundan sonra da atılacaqdır. Bu gün Azərbaycan hüquqi dövlət ideyasının reallaşdığı, şəxsiyyət, vətəndaş və cəmiyyət münasibətlərinin demokratik prinsiplərə əsaslandığı, müxtəlif milli-dini sivilizasiyaların qovuşduğu tolerant ölkə kimi tanınır. Hər ötən illə müqayisədə ölkəmizdə demokratik dəyərlərin həyatımıza tətbiq olunma tempi yüksələn xətt üzrə inkişaf edir". Prezident İlham Əliyevin bu fikri Onun demokratik dəyərlərə sadiqliyinin və bu yolun Onun daxili aləmi ilə vəhdət təşkil etməsinin real təcəssümüdür. Dövlət başçısı insan hüquq və azadlıqlarının qorunması sahəsində, həm də Ümummilli Lider Heydər Əliyev ənənələrini uğurla davam etdirir.

Ümummilli Lider Heydər Əliyevin yüksək insanpərvərliyinin təcəssümü olaraq Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində atılan ilk prinsipial addımlardan biri 1993-cü ildən ölüm cəzasının tətbiqi üzərində moratoriumun qoyulmasını, 1998-ci ilin fevralında isə bu cəzanın tamamilə ləğvini qeyd etməliyik. Azərbaycan Avropa Şurası kimi nüfuzlu beynəlxalq təşkilata üzv qəbul edilənədək bu hökmü tamamilə ləğv etmiş ilk respublika olmuşdur. Ulu Öndər Heydər Əliyevin yüksək nəcibliyindən irəli gələn bu addım, həm də ölkəmizin Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilata üzvlüyünün reallaşması məqsədilə atılmışdır.

1995-2003-cü illərdə Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən 32 əfv fərmanı imzalanmış və bu fərmanlar 3256 məhkuma şamil edilmişdir. Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü əsasında Milli Məclis 1996-2001-ci illərdə 8 amnistiya haqqında qanun imzalamış, 31584 məhkum azadlığa buraxılmış və yaxud cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılmışdır. Bəzi iddiaların əksinə olaraq, bu addımlar ciddi tərbiyəvi əhəmiyyət daşımış, ölkədə cinayətkarlığın səviyyəsinin daha da azalmasını təmin etmişdir. İnsanlara böyük sevinc bəxş edən, onlarda səmimi, ülvi hisslər aşılayan əfv Fənmanları Ümummilli Lider Heydər Əliyevin xalq və dövlət maraqları naminə reallaşdırdığı misilsiz işlər sırasında daim xüsusi qeyd olunacaqdır.

Prezident İlham Əliyev də bu, nənəyə sadiq qalaraq, hər bir fərdin mənafeyinin əsas götürüldüyü hüquqi dövlət quruculuğu modelinə əsaslanır. Prezident İlham Əliyev əfvetmə institutunun çevik və işlək mexanizmlər əsasında fəaliyyətini təmin etmişdir. Hər bir vətəndaşın Prezidenti olduğunu qısa müddətdə tam sübuta yetirmiş İlham Əliyev, hətta bu və digər səbəblərdən cinayət əməlinə yol vermiş insanların da taleyinə biganə deyil: məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, qeyri-hökumət təşkilatlarının, insan hüquqları üzrə Müvəkkilin müraciətlərinə əsaslanan, məhkumların səhhətini, ailə vəziyyətini, bu müddətdə davranışlarını nəzərə alan, cəzadan azad etmənin tərbiyəvi əhəmiyyətini önə çəkən Prezident İlham Əliyev bir-birinin ardınca əfv Fərmanı imzalayır.

Prezident İlham Əliyev hakimiyyətdə olduğu müddət ərzində əfvlə bağlı 10 Fərman imzalamış, 1500-dən artıq məhkumu cəzasının çəkilməmiş hissəsindən tam və yaxud qismən az etmişdir. Bu rəqəm son 10 ildə Azərbaycanda əfv olunmuş məhkumların təxminən 40 faizini təşkil edir. Bu göstəriciyə görə, Azərbaycan dünyanın ən aparıcı demokratik ölkələrini də qabaqlayır.

Bu, həm də respublikamızda insan hüquqlarının etibarlı təminatına və demokratikləşməyə xidmət edən strateji siyasi kursun layiqincə davam etdirildiyini göstərir. Dünyanın insan hüquqları sahəsində ixtisaslaşmış nüfuzlu təşkilatları da bunu açıq etiraf edir, Prezident İlham Əliyevin insanpərvər və humanist dövlət başçısı olduğunu bildirirlər.

Azərbaycanın bütün sahələrdə inkişaf etməsi, habelə, insan hüquq və azadlıqları sahəsində ixtisaslaşmış digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığının yeni mərhələyə qədəm qoyması məhkəmə-hüquq islahatlarının da keyfiyyətcə yeni mərhələdə davam etdirilməsini vacib məsələ kimi önə çıxarmışdır. Bu reallığı düzgün qiymətləndirən Azərbaycan Prezidenti İlham Əliyev məhkəmə-hüquq islahatlarını yeni dövrün tələblərinə uyğun davam etdirir. Məhkəmələrin insan və vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu, ədalət mühakiməsinin tam qanunamüvafiq şəkildə həyata keçirildiyi ali instansiyaya çevrilməsinə və cəmiyyətdə yüksək etimad qazanmasına çalışan dövlət başçısı bu sahədə böyük uğurlara imza atmışdır.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

## Şahzadə toydan sonra bu evdə yaşayacaq



Şahzadə Harri və nişanlısı Meqan Çarkl toydan sonra yaşayacaqları evin hazırlıqlarına başlayıblar. Xarici KİV-lərin yazdığına görə, cütlüyün toyu mayın 19-da keçiriləcək. Hazırda onlar Kral Sarayının yaxınlığında yerləşən kiçik bir evdə qalırlar.

Rəsmi nikahdan sonra isə Harri və Meqan böyük evə köçəcək. Harri evin təmiri ilə özü məşğul olub. Evi ətrafına isə çoxlu ağaclar əkilib. Buna səbəb isə cütlüyün kənar baxışlardan qorunmağa çalışmasıdır. Harri və Meqanın evinin yaxınlığında şahzadə Uilyam və Keyt Middlton yaşayır.

## Təzyiqi dərmansız salmaq üçün 3 sadə üsul

Arterial təzyiqin daim yüksək olması orqanizmdə bir çox orqan və sistemlərə (ürək-damar sistemi, böyrəklər, gözlər və s.) ciddi ziyan vurur, insult və infarktın inkişafına səbəb olur. Bu səbəbdən insan təzyiqinə daim nəzarət etməli və təzyiqi normada saxlamağa çalışmalıdır. Adətən, təzyiqi normada saxlamaq üçün xüsusi dərman preparatları istifadə olunur. Lakin mütəxəssislər sübut edir ki, bəzi çox sadə qaydalara riayət etməklə təzyiqi dərmansız da tənzimləmək mümkündür.

**Bu üsullar arasında:**

- Arıqlamaq. Bədən çəkisinin, hətta 1 kq azalması təzyiqin azalmasına kömək edir.

- Duzun qəbulunu azaltmaq. Duz insan orqanizmi üçün çox vacibdir və duzdan tam imtina etmək olmaz. Son araşdırmalar aşkar edib ki, duzdan tam imtina, hətta insanın ölümünə səbəb ola bilər. Lakin həddindən artıq miqdarda duzun qəbulu orqanizmdə mayenin çıxmasına mane olur ki, nəticədə orqanizmdə mayenin həcmi artır. Bu isə təzyiqin artmasına səbəb olur.

- İdmanla məşğul olmaq. Mütəxəssislər sübut edir ki, həftədə 5 dəfə 30 dəqiqə ərzində bədən tərbiyəsi ilə və hətta tez yerişlə məşğul olan insanın təzyiqi 10 mm.c.st. düşür.

## Milyarder Evan Şpiqel və model xanımı valideyn olublar

“Snapchat” qurucusu, milyarder Evan Şpiqel və model xanımı Miranda Kerr valideyn olublar. Axşam.az xarici KİV-ə istinadən xəbər verir ki, bu, 35 yaşlı Mirandanın ikinci, 28 yaşlı Evanin isə ilk övladıdır. Cütlüyün Los-Ancelesdə yerləşən xəstəxanalardan birində oğlu dünyaya gəlib. Onlar uşağa Evanın babası şərəfinə Xartom adı veriblər. Qeyd edək ki, Kerrlə Şpigel ötən ilin mayında Los-Ancelesdə nikah masasına oturub. Bundan əvvəl Miranda aktyor Orlando Blum ilə evli olub və ondan Flin adlı bir oğlu var.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Coğrafiya müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Nəsurullayeva Səbinə Fəxri qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

x x x

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Biologiya müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi Qəniyeva Türkan Baba qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

x x x

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fiziki tərbiyə və çağırışaqədər ixtisası üzrə I kurs tələbəsi Quliyev Elnur Xəqani oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## AFFA İcraiyyə Komitəsinin növbəti iclası olub



Mayın 11-də AFFA-nın inzibati binasında İcraiyyə Komitəsinin növbəti iclası keçirilib. İclasda aparılan müzakirələrdən sonra Azərbaycan Premyer Liqası klublarının əvəzedici komandaları arasında keçirilən çempionatın davam etdirilməsi və 2018-2019-cu il mövsümündən etibarən əvəzedici komandanın oyununun əsas komandaların görüşündən bir gün əvvəl keçirilməsi barədə qərar qəbul olunub. İclasda Premyer Liqada 1996-1997-ci il təvəllüdlü futbolçuların start heyətinə, 1998-1999-cu il təvəllüdlü futbolçuların isə oyunun protokoluna daxil olunması məqsədəuyğun hesab edilib. AFFA baş katibliyinin birinci divizionla bağlı İcraiyyə Komitəsinə yeni konsepsiya təqdim etməli olduğunu qərara alınıb. İclasda AFFA-nın Apellyasiya və Arbitraj Tribunalının sədri Muxtar Babayevin istefası qəbul olunub. AFFA-nın növbəti konfransınadək Apellyasiya və Arbitraj Tribunalının sədri vəzifəsi Ziya Babayevə həvalə edilib. Müzakirələr zamanı Azərbaycan milli komandasının hazırkı vəziyyəti barədə baş məşqçi Qurban Qurbanovun qısa hesabatı dinlənilib. Lisenziyalaşdırma prosesi ilə bağlı hesabat təqdim olunub.

## Yeniyetmə gimnastlarımız dünya kubokunda uğurla çıxış ediblər



İspaniyanın Quadalaxara şəhərində bədii gimnastika üzrə “Challenge” seriyasına aid dünya kuboku yarışı başa çatıb. SİA-nın məlumatına görə, son günlər uğurlu çıxışları ilə yadda qalan Azərbaycanın yeniyetmə gimnastları bu turnirdə də mükafat qazanıblar. Komanda hesabında təmsilçilərimiz Nərminə Səmədova və Arzu Cəlilova yığmamızın ümumi hesabına 88,550 xal yazdırmaqla üçüncü pilləyə yüksəliblər. İdmançılarımız bu uğurlu nəticə sayəsində turnirin bürünc medalına layiq görülüblər. Azərbaycan gimnastları Dərya Farşbafşəhriyari və Yelizaveta Luzan isə 86,950 xal toplayaraq dördüncü pillədə qərarlaşıblar.

Gimnastlarımız fərdi yarışların finalında da inamlı təsir bağışlayıblar. Final mərhələsində A.Cəlilova gürzlərlə hərəkətlərdə dördüncü, lentlə çıxışda isə yeddinci olub. Y.Luzan isə halqa ilə çıxışına görə altıncı yeri tutub.

## “Akhisar “ Türkiyə kubokunun qalibi olub




Futbol üzrə Türkiyə kubokunda final oyunu keçirilib. SİA-nın məlumatına görə, həlledici matçda “Akhisar” və “Fənərbaxça” üz-üzə gəlib. Matç “Akhisar”ın 3:2 hesablı qələbəsi ilə başa çatıb. Bununla da, “Akhisar” tarixində ilk dəfə ölkə kubokunun qalibi olub. Komanda ilk dəfə Avropa Liqasında oynamaq hüququ qazanıb.

## “Everton” Runini 17 milyon dollara satır

“Everton”un futbolçusu Ueyn Runinin “Di Si Yunayted”də keçidi baş tutmaq üzrədir. BBC-nin yaydığı xəbərə görə, bununla bağlı iki klub arasında razılıq əldə olunub. Razılığa əsasən, MLS təmsilçisi İngiltərə klubuna 12.5 milyon funt sterlinq (təxminən 17 milyon dollar) ödəyəcək. Runin “Di Si Yunayted”lə 2020-ci ilin yayına kimi müqavilə imzalayacağı gözlənilir. Bu keçidin iyulda gerçəkləşəcəyi bildirilir. Qeyd edək ki, Runi 2017-ci ildə “Mançester Yunayted”dən “Everton”a transfer olunub.

## TFF Arda Turana 16 oyunluq cəza verdi!

Türkiyə Futbol Federasiyası (TFF) “Başakşehir” komandasının oyunçusu Arda Turanı 16 rəsmi matçda oynamaqdan məhrum edib. Bu barədə Türkiyə mətbuatı xəbər yayıb. Qeyd edək ki, Türkiyə Super Liqasının 32-ci turunda keçirilən “Başakşehir” - “Sivasspor” matçında Arda yan hakimin qərarına etiraz edib və onu itələyib. Nəticədə baş hakim ona qırmızı vərəqə göstərib. Bu qərardan sonra o, baş hakimin üstünə yeriyərək yumruğunu göstərməklə onu hədələyib.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**